QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 159 (5631) 25 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bakıda parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur

## *Prezident İlham Əliyev Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olub*



Səh 2

13

Ermənistan mətbuatı ölkənin düşdüyü ağır vəziyyətdən yazır



10

"Merkelin Azərbaycana səfəri iki ölkə münasibətlərini daha da inkişaf etdirəcək"



9

"Xeyirxahlıq, humanistlik Mehriban xanım Əliyevanın həyat amalıdır"



# Bakıda parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur

## Prezident İlham Əliyev Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olub








***Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.***

AZƏRTAC xəbər verir ki, idman-əyləncə park kompleksi Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrini əhatə edən ərazidə salınıb.

Görülən işlərlə tanışlıq zamanı Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan idman-əyləncə park kompleksi barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, yeni park kompleksinin ümumi sahəsi 36833 kvadratmetrdir. Parkın salındığı ərazi geoloji araşdırmalar nəticəsində aşkar edilən neft və mərmər tozu tullantılarından təmizlənib, torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıb. İdman-əyləncə park kompleksində təbii daşlardan və metaldan düzəldilən heykəllər landşaftla vəhdət təşkil edir. Buradakı heykəllər xüsusi dizayn və üslubu ilə fərqlənir. Parkda müxtəlif daş heykəllər, o cümlədən ürək formasında heykəllər və "Love" kompozisiyası quraşdırılıb. Park kompleksinin ərazisində örtülü şahmat pavilyonu da var. Bundan başqa, iki futbol meydançası, voleybol, həndbol və basketbol oyunları üçün universal idman meydançası və trenajor meydançası qurulub. Burada kafe də fəaliyyət göstərəcək.

Qeyd edildi ki, idman-əyləncə park kompleksi ilə 2016-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Sevirəm" parkını asfaltlanmış sahə, avtodayanacaqlar və müasir metal körpü birləşdirir. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeniləri yaradılır. Bu istirahət məkanlarında idmanın təbliğinə və vətəndaşlarımızın fiziki sağlamlığına xüsusi diqqət ayrılır. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.

Yeni parkların və istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir. Bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Müasir üslubda, orijinal dizaynda qurulan bu idman-əyləncə park kompleksinin istifadəyə verilməsi ilə paytaxtın gəzməli yerlərinə daha bir ünvan əlavə olundu. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir.



# İslandiya ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur

## *Prezident İlham Əliyev İslandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də İslandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Berqlind Asqeyrsdottirin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, xanım Berqlind Asqeyrsdottir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Berqlind Asqeyrsdottirin ölkəmizdə müvafiq qurumların rəhbərləri ilə mütəmadi olaraq görüşəcəyinə və iki ölkə arasında əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlar aparacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev siyasi sahədə əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq qurumlarda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Eyni zamanda, dövlətimizin başçısı ticarət və turizm sahələrində də əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayaraq, İslandiyanın və Azərbaycanın gözəl turizm məkanlarının olmasının bunun üçün yaxşı imkan yaratdığını dedi.

Səfir Berqlind Asqeyrsdottir paytaxtımıza gəlişindən məmnunluğunu bildirərək qeyd etdi ki, Bakı çox füsunkar və cazibədar bir şəhərdir. Səfir paytaxtımızın arxitekturasının onda çox dərin təəssürat yaratdığını dedi. Diplomat futbol üzrə İslandiya milli komandasının qapıçısı Hannes Tur Halldorssonun Azərbaycanın "Qarabağ" klubuna keçdiyini vurğulayaraq, bu qapıçının dünya çempionatında məşhurlaşdığını dedi və bildirdi ki, onun "Qarabağ" komandasına keçməsi islandiyalılar arasında Azərbaycana böyük maraq doğurub. Səfir Berqlind Asqeyrsdottir ölkələrimiz arasında əlaqələrin gələcək inkişafının istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd edərək müxtəlif sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirdi.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Mixail Timofeyevin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında idmanın inkişafındakı xidmətlərinə görə Mixail Valeryeviç Timofeyev "Tərəqqi" medalı ilə təltif edilsin.

# Prezident İlham Əliyev Beninin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssiradjou Gomina İbrahimin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir İssiradjou Gomina İbrahim fəxri qarovul dəstəsinin qarşısından keçdi. İssiradjou Gomina İbrahim etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Benin arasında münasibətlərin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini qeyd edərək səfir İssiradjou Gomina İbrahimin Azərbaycanda bununla bağlı səmərəli görüşlər keçirəcəyinə əminliyini ifadə etdi və bildirdi ki, bu baxımdan xalqlarımızın bir-birinə daha da yaxınlaşması, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi önəmlidir.

Səfir İssiradjou Gomina İbrahim Azərbaycana gəlişindən böyük məmnunluq hissi keçirdiyini qeyd edərək, bundan əvvəlki diplomatik fəaliyyəti dövründə Azərbaycan haqqında məlumatlarla yaxından tanış olduğunu vurğuladı. Səfir Qoşulmama Hərəkatının nazirlər konfransının ölkəmizdə yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, orada iştirak etdiyini bildirdi. İssiradjou Gomina İbrahim ölkələrimiz arasında təhsil və kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün yaxşı imkanların mövcud olduğunu qeyd etdi. Səfir Azərbaycan Prezidentinə fəaliyyətində yeni-yeni uğurlar və dost Azərbaycan xalqına firavanlıq arzuladı.

# Azərbaycanla Vyetnam arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nqo Duk Manhın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nqo Duk Manh etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı Azərbaycanla Vyetnam arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdiyini vurğulayaraq, həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsində mühüm rol oynadığını qeyd etdi. Əlaqələrimizin zəngin ənənələrə malik olduğunu bildirən Prezident İlham Əliyev hələ sovetlər dövründə Vyetnamdan xeyli sayda tələbənin Azərbaycanda təhsil aldığını və özünün Vyetnama uğurlu səfəri zamanı həmin insanlarla görüşməsini məmnunluqla xatırladı. Dövlətimizin başçısı siyasi sahədə, beynəlxalq qurumlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini deyərək, iqtisadi-ticarət sahəsində də əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Səfir Nqo Duk Manh Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanqın salamlarını dövlətimizin başçısına çatdırdı. O, vaxtilə Azərbaycanda təhsil aldığını məmnunluqla qeyd edərək, Prezident İlham Əliyevin Vyetnama səfəri zamanı Azərbaycanın vyetnamlı məzunları ilə birlikdə dövlətimizin başçısı ilə keçirdikləri görüşün onlarda dərin təəssürat hissi doğurduğunu dedi. Səfir Azərbaycanda özünü evindəki kimi hiss etdiyini deyərək, Vyetnam Sosialist Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri təyin olunmasından şərəf hissi duyduğunu bildirdi və qeyd etdi ki, əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanqın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vyetnam Prezidentinə çatdırmağı xahiş etdi.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
25 avqust 2018-ci il

# Merkelin Cənubi Qafqaz turnesi: Almaniya nə qazanır?

## *Yaxud üç ölkədən ən önəmlisi - yekun seçim Azərbaycandır*



***Məlum olduğu kimi, Almaniya Federativ Respublikasının kansleri, Avropanın növbəti dəmir ledisi statusunu qazanmış Angela Merkelin Gürcüstan və Ermənistanın ardınca, avqustun 25-də Azərbaycana səfəri reallaşacaq. Artıq istər postsovet məkanında, istərsə də Avropada xanım Merkelin Cənubi Qafqaz səfəri ətrafında bir sıra maraqlı nüanslar qeyd edilməkdədir. Daha çox diqqət cəlb edən amil isə Almaniya kanslerinin siyasi turnesi fonunda Azərbaycanla bağlı daha çox materialların yer almasıdır. Bu isə, əbəs deyil, belə ki, məhz Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olaraq tanınır və qəbul edilir. Məhz bu baxımdan, almaniyalı dəmir ledi regiona səfərini Azərbaycanla yekunlaşdırmağı planlaşdırıb.***

### Önəmli qərarlar Azərbaycanla məsləhətləşdiriləcək

Yəni yekun seçim və bu seçimdə veriləcək önəmli qərarlar Azərbaycanla məsləhətləşdiriləcək. Əslində, belə bir addım beynəlxalq siyasi kuluarlarda da nəzərə alınır və Almaniyanın Cənubi Qafqaz ölkələri sırasında Azərbaycana verdiyi önəmi isbatlamış olur. O cümlədən, Almaniyanın Avropa İttifaqı ölkələri arasında xüsusi çəkiyə və siyasi üstünlüyə malik olması da, bütövlükdə, Azərbaycan üçün bir sıra mühüm siyasi və s. dividendlər qazandırmış olur.

Onu da qeyd etmək yerinə düşərdi ki, Almaniya ilə Azərbaycan arasında siyasi-diplomatik münasibətlərin rəsmi tarixi 1992-ci ilin 20 fevral tarixinə təsadüf etsə də, həmin münasibətlərin inkişafı 1993-cü ilin yayından sonraya söykənir. Daha dəqiq desək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, Azərbaycanın Avropa ölkələri ilə xarici əlaqələr qurmasında köklü dəyişikliklərə start verilmiş oldu.

### Heydər Əliyev Avropa siyasətində daim Almaniyanı əsas ölkə kimi qiymətləndirib

Halbuki həmin dövrə qədər hakimiyyətdə olmuş AXC-Müsavat iqtidarının naşı siyasəti, xarici diplomatik uğursuzluqları, demək olar ki, Avropa qitəsini, bütövlükdə isə, Qərbi ölkəmizə qarşı qərəzli siyasət aparması ilə nəticəsini tapmışdı. Eyni zamanda, Ulu Öndər Heydər Əliyev Avropa siyasətində daim Almaniyanı əsas ölkə kimi qiymətləndirib. Ona görə də, 1993-cü ildən etibarən Almaniya-Azərbaycan münasibətlərinin genişləndirilməsi istiqamətində ciddi addımlar atıldı, müxtəlif və çoxşaxəli istiqamətlərdə əlaqələrin qurulmasına başlanıldı. 1995-1996-cı illərdə ölkələr arasında mədəniyyət, iqtisadiyyat və s. sahələri əhatə edən dövlətlərarası sazişlər imzalandı. Xüsusilə, 1995-ci il dekabrın 22-də Almaniya Federativ Respublikası ilə bağlanan "Mədəni əməkdaşlıq haqqında Azərbaycan Respublikası hökuməti ilə Almaniya Federativ Respublikası hökuməti arasında saziş" qarşılıqlı əməkdaşlığın imkanlarını genişləndirdi, mübadilə məsələlərinə diqqət yetirildi. Məsələn, Almaniyanın Bremen Muzeyinə məxsus olan 14 rəsm əsəri 40 ildən artıq bir dövrdə (1947-ci ildən etibarən) Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılırdı. Həmin rəsm əsərlərinin 1999-cu il noyabrın 16-da Prezident Heydər Əliyevin Sərəncamı ilə öz vətəninə - AFR-ə ödənişsiz qaytarılması iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Nəticədə, rəsmi səviyyədə əldə edilən razılaşmalar, davamlı əməkdaşlıq qərarları öz səmərəli nəticəsini vermiş oldu. Misal üçün, 1996-cı ilin mayında Bakıda Almaniya günləri, 2001-ci ilin yayında isə Köln şəhərində Azərbaycan günləri keçirildi və bu ənənə hazırkı zamanlarımıza qədər davam etdirilməkdədir.

### Prezidenti İlham Əliyev daim ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq bağlarına önəm verib

Söz yox ki, Almaniya Federativ Respublikasının kanslerinin Azərbaycana xüsusi önəm verməsini, həm də ölkəmizin son dövrlərdə əldə etdiyi nəhəng iqtisadi uğurları ilə də əlaqələndirilə bilər. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev daim ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq bağlarına önəm verib. Onun Almaniyaya işgüzar və rəsmi səfərləri çərçivəsində ölkələrimiz arasındakı münasibətlər barədə irəli sürdüyü əhəmiyyətli fikirləri hər zaman Almaniyanın aparıcı siyasi dairələri, eyni zamanda, alman ictmaiyyəti tərəfindən alqışlarla qarşılanıb.

Onu da qeyd etmək yerinə düşərdi ki, rəsmi Bakı reallaşdırdığı enerji və nəqliyyat layihələri əsasında daim Avropa ölkələrinin iştirak etməsinin mümkünlüyünü bəyan edib, həmin layihələrin təşəbbüskarı olaraq, bu istiqamətdə müxtəlif çağırışlar olunub. Əlbəttə, Almaniya Avropanın söz sahibi ölkələri sırasında, birinciliyini əldə saxlamaqla yanaşı, öz yerini möhkəmləndirmək, daha sabit saxlamaq və inkişaf etdirmək marağındadır. Bu mənada, Azərbaycanla həmin sferada əlaqələri genişləndirmək Federativ Respublikanın siyasi çəkisini və nüfuzunu daha da artırmış olur.

### Almaniya daim torpaqlarımızın 20 faizinin işğal edilməsi məsələsində ərazi bütövlüyü prinsipindən çıxış edib

Lakin digər tərəfdən, o da sirr deyil ki, xanım Merkel Qarabağ probleminin həllində daim maraqlı tərəf kimi çıxış edib. Həmçinin, rəsmi Berlinin Qarabağ danışıqlarında vasitəçi olması ideyasını Bakı daima dəstəkləyib. Çox yəqin ki, Angela Merkelin Bakı səfərində bir daha ölkəmizin ərazi bütövlüyü dəstəklənəcək, Azərbaycana qarşı yürüdülən işğal faktoru isə pislənəcək. Əsası isə budur ki, Almaniya daim torpaqlarımızın 20 faizinin işğal edilməsi məsələsində ərazi bütövlüyü prinsipindən çıxış edib. O da əbəs deyil ki, Almaniya müxtəlif münaqişələrin həllində Avropa ölkələri sırasında daha fəaldır görünməkdə və qiymətləndirilməkdədir.

### Merkel: "Əmin ola bilərsiniz ki, Almaniya ölkənizin modernləşməsində, demokratiyanın və hüquqi dövlətin inkişafında etibarlı tərəfdaşınız olaraq qalacaq"

Növbəti diqqətçəkən mühüm məqam xanım Merkelin, şəxsi olaraq, Prezident İlham Əliyevlə olan dostluq münasibətinə önəm verməsidir. Misal üçün, bu məqamda, biz 2017-ci ilin aprelində almaniyalı kanslerin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi ilə bağlı dövlət başçımıza göndərdiyi məktubu xatırlaya bilərik. Sözügedən məktubda xanım Merkel vurğulayır ki, hələ 200 il bundan əvvəl ilk alman mühacirləri müasir Azərbaycanın ərazisində məskunlaşıblar. O, münasibətlərimizin canlı və hərtərəfli olduğunu Prezident İlham Əliyevin 2016-cı ilin iyun ayında Almaniyaya səfəri ilə, birmənalı olaraq təsdiq etdiyini, xüsusilə, qeyd edib. "Almaniya olaraq Sizin ölkəmiz ilə sıx əməkdaşlıq etməyə hazır olmağınızı və Avropanın dəyərlər icmasına qoşulmaq iradənizi alqışlayır" deyə qeyd edən kansler vurğulayıb: "Əmin ola bilərsiniz ki, Almaniya ölkənizin modernləşməsində, demokratiyanın və hüquqi dövlətin inkişafında etibarlı tərəfdaşınız olaraq qalacaq".

Beləliklə, xanım Merkelin Cənubi Qafqaz regionuna səfəri çərçivəsində, yekun olaraq, Azərbaycanı ziyarət etmək planı mühüm siyasi amillərə söykənir. Bu siyasi amillər həm Almaniyaya, həm də Azərbaycana münbit, səmərəli və davamlı uğurlar vəd edir.

**Rövşən RƏSULOV**

# Xalqa və Vətənə xidmət məramı



***Ölkəmizdə baş verən ictimai-siyasi və mədəni proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış edərək, Azərbaycan əhalisinin sağlamlığı, xoşbəxtliyi, firavanlığı, sülh və əmin-amanlığın müdafiəsinə töhfələrini verən Azərbaycanın Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər yaşadığımız qloballaşma dövründə, ölkəmizin dünyaya inteqrasiya etdiyi bir zamanda, əhəmiyyət kəsb etdi. Ölkəmizin milli-mənəvi dəyərlərinin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusiliyinin dünyəviləşməsi istiqamətində fondun həyata keçirdiyi işlər tarixin bu günü üçün deyil, gələcəkdə əsrlərin yaddaşında iz buraxacaq hadisələrlə bağlıdır.***

İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət və s. Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Bəşəri ideyaları ilə dünyaya sülh aşılayan, insanlığı təbliğ edən Azərbaycanın Birinci Xanımının insanlığın tələbinə uyğun addımları həssas, səmimi bir insan obrazını diqqətə çəkir. Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi layihələr, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasında, eyni zamanda, dünyada təbliğində rolu, Azərbaycanda və ölkə xaricində xeyriyyəçilik fəaliyyəti, elm, təhsil, səhiyyə, idmanın inkişafına diqqət və qayğısı Azərbaycan xanımı haqqında bütün gerçəklikləri ifadə edir.

1964-cü il 26 avqust tarixində Bakı şəhərində ziyalı ailəsində anadan olan Mehriban xanım Əliyeva yaşadığı ömür yolunda şərəfli və mənalı bir səhifə yarada bilib.

## DÖVLƏTÇİLİYİMİZ TARİXİNDƏ AZƏRBAYCANIN BİRİNCİ XANIMI STATUSU

Azərbaycan dövlətçiliyi tarixində, ilk dəfə olaraq, Birinci Xanım statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına Birinci Xanım ənənəsini gətirmişdir. Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır; O, bütün bilik və bacarığını müxtəlif humanitar təşəbbüslərin reallaşmasına sərf edir. Müsahibələrinin birində Birinci Xanım olmaq yükünün nə dərəcədə ağır olduğunu belə izah edir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür".

Azərbaycanda son illər ərzində formalaşmış Birinci Xanım institutu dünyanın bir çox ölkələri üçün örnək ola bilər. Mehriban Əliyevanın xalq üçün gördüyü işlərin miqyası geniş və olduqca əhəmiyyətlidir. "Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm" - deyir Mehriban Əliyeva.

Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində, məhz millətə layiqli xidmət məramı dayanır.

## FONDUN FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ AZƏRBAYCAN CƏMİYYƏTİNİN MÜDAFİƏYƏ ƏN ÇOX EHTİYACI OLAN ÜZVLƏRİNƏ GÖSTƏRİLMƏSİ İLƏ BAĞLIDIR

Heydər Əliyev Fondunun bu günə qədər həyata keçirdiyi irimiqyaslı layihələrin hər biri humanizm prinsiplərinə söykənərək, xalqın sosial rifahının yüksəlməsinə yönəlib. Müxtəlif yaşda olan insanlara qayğı fondun əsas fəaliyyət istiqamətini təşkil edir. "Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə, müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır",- deyir Mehriban xanım Əliyeva. Görülən işlər Mehriban xanım Əliyevanın mənəvi tələbatından irəli gəlir. İnsanlara yardım etmək, kimsəsizə əl tutmaq prinsipi ilə yaşayan Mehriban xanım Əliyeva respublikanın işıqlı gələcəyi üçün böyük işlər görür. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri, qısa bir zaman məsafəsində, böyük uğurlara səbəb oldu. "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində respublika üzrə uşaq müəssisələri əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Azərbaycanın Birinci Xanımının təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda 50 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir. "Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə, müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır", - deyir Mehriban Əliyeva. Fondun fəaliyyət göstərdiyi dövr ərizində bu sahədə çox işlər görülüb.

Bu gün sağlamlıq imkanları məhdud uşaqlar üçün iki sosial xidmət müəssisəsi - Bakının Xəzər rayonunun Şağan qəsəbəsindəki 3 saylı və Abşeron rayonunun Saray qəsəbəsindəki 7 saylı internat evləri fəaliyyət göstərir. Fiziki və əqli qüsurlu uşaqlar üçün nəzərdə tutulan həmin internat evlərində, ümumilikdə, 300-dən artıq uşaq tam dövlət himayəsində yaşayır. YUNESKO və İSESKO-nun Xoşməramlı Səfirinin uşaq evləri və internat evlərinə göstərdiyi diqqət və qayğı Şağan 3 saylı və Saray 7 saylı internat evlərinin də həyatında çox böyük müsbət dəyişikliklər yaradıb.

## "BU GÜN DƏ ÇOXKONFESSİYALI VƏ ÇOXMİLLƏTLİ AZƏRBAYCAN BU ƏNƏNƏLƏRƏ SADİQDİR VƏ BU, ƏN BÖYÜK SƏRVƏTLƏRDƏN BİRİDİR"

Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanların sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşadığını çıxışlarının birində bildirən Mehriban xanım Əliyeva "Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir", - deyib.

Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu.

Ardı Səh. 6

# Xalqa və Vətənə xidmət məramı

Əvvəli-Səh-5

Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Layihənin digər tərkib hissəsi "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik Təhsil Mərkəzi inşa olunub. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycanda görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur.

Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.




### HƏR İŞDƏ PEŞƏKARLIQ

Ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsi, sosial inkişafı bütün sahələrdə böyük nailiyyətlərin əldə olunmasına ciddi zəmin yaradıb. Ölkə başçısı İlham Əliyevin ardıcıl olaraq, həyatın bütün sahələrinin inkişafı üzrə həyata keçirdiyi islahatlar, qəbul olunmuş dövlət proqramları Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri arasında özünə layiqli yer tapmasına şərait yaradıb. Azərbaycanın sürətli inkişafı ölkəmizdə idman hərəkatının daha geniş vüsət almasına səbəb olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq, idman ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkəmizdə dövlət səviyyəsində idmana və Olimpiya Hərəkatının inkişafına göstərilən diqqət və qayğının nümunəsinin nəticəsidir ki, Birinci Avropa Oyunları Bakıda keçirildi. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi, həm də ölkəmizin idman sahəsində son illərdə qazandığı uğurlardan qaynaqlanırdı. İlk Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyevanın Sədr təyin edilməsi artıq hər şeyi demiş oldu. Təşkilatçılıq bacarığı ilə seçilən Azərbaycanın Birinci Xanımının rəhbərliyi ilə indiyə qədər keçirilən bütün tədbirlər yüksək təşkilatçılıq səviyyəsi və keyfiyyət standartı ilə seçilib. Məhz Azərbaycan dövlətinin iradəsi, Mehriban xanım Əliyevanın təşkilatçılıq qabiliyyəti sayəsində "Eurovision" tarixində yeni keyfiyyət standartı müəyyən edildi və ölkəmiz böyük miqyaslı yarışı ən yüksək səviyyədə keçirməklə nüfuz qazandı. Mehriban Əliyeva üzərinə düşən öhdəliyi böyük məsuliyyətlə yerinə yetirdi. Hər işdə peşəkar olduğunu bir daha göstərdi. 2017-ci ildə isə paytaxtımızda keçirilən İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə Mehriban Xanım Əliyevanın Sədrlik etməsi də, əlbəttə ki, IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ilin ən böyük idman hadisəsi olduğuna şübhə yaratmadı.






### "HƏR BİR CƏMİYYƏTDƏ MƏRHƏMƏT, İNSANPƏRVƏRLİK, QAYĞI KİMİ HİSSLƏR ƏSAS YER TUTMALIDIR"

Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olduğu illərdə amnistiya təşəbbüsləri də cəmiyyətimizdə geniş rezonans doğurdu və bu, Mehriban xanımın humanizm prinsiplərinə sadiqliyini təsdiq etmiş oldu. Milli Məclisdəki fəaliyyəti dövründə Mehriban xanım Əliyeva humanizm prinsiplərinə sadiqliyini dəfələrlə sübut etmişdir. Onun təşəbbüsü ilə hazırlanmış Amnistiya Aktları 2007, 2009, 2013 və 2016-cı illərdə Milli Məclis tərəfindən qəbul olunmuş, nəticədə, minlərlə məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti, məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir", - deyir Mehriban xanım Əliyeva. Onun simasında Azərbaycan qadını, humanist dəyərləri mənəvi kamilliyin əsas meyarı kimi önə çıxarır, ədalətli cəmiyyətin bərqərar edilməsinin zəruri şərtlərini müəyyən edir. Beləliklə, Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışı bir-birinə möhkəm tellərlə bağlanaraq, sosial-mədəni inkişafımıza töhfələr verir.

### AZƏRBAYCANLA YUNESKO ARASINDA DAVAMLILIQ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNUR

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır.

### FONDUN HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏR DÜNYADA AZƏRBAYCAN HAQQINDA TAM, HƏQİQİ VƏ DOLĞUN TƏSƏVVÜR YARADILMASINA BÖYÜK KÖMƏK GÖSTƏRİR

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə təqdimində misilsiz xidmət göstərib və bu, davam etməkdədir. Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədi ilə fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə, istifadə olunmuş internet texnologiyalarına görə ölkəmizdə analoqu olmayan "Azərbaycan" internet portalı yaradılıb. Azərbaycan, ingilis və rus dillərində tərtib olunan "Azərbaycan" portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına böyük kömək göstərir.

Ardı Səh. 7

# Xalqa və Vətənə xidmət məramı





Əvvəli-Səh-6

Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən müxtəlif saytlar və multimedia diskləri hazırlanıb.

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı soyqırımı, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus, macar dillərində nəşr olunmuş bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq, Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirib.

Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, bu cür dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir. Xüsusən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmasında, birmənalı olaraq, fəaliyyətini davam etdirir.

## BƏŞƏRİYYƏTİN ALİ İDEALLARINA XİDMƏT SAHƏSİNDƏ YÜKSƏK NAİLİYYƏTLƏRİNƏ GÖRƏ BEYNƏLXALQ MÜKAFATLARA LAYİQ GÖRÜLÜB

Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara və mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti və yüksəkliyidir. O, 2004-cü ildən Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə, YUNESKO-nun Xoşməramlı Səfiri adını daşıyır. 2005-ci ildə Mehriban xanım Əliyeva "İlin Qadını" seçilib. 2005-ci ildə ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə, Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq da daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə, İSESKO-nun Xoşməramlı Səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə, "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin, birmənalı olaraq, qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə, "Heydər Əliyev Mükafatı" ilə təltif edilib. Bütün bunlar Mehriban xanımın Azərbaycan xalqı qarşısında xidmətlərinə olan mükafat və qiymətdir. Daha sonra "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" Diplomu və Xatirə nişanı ilə təltif edilib. Bütün bunlarla yanaşı, Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də elə gördüyü işlərin nəticəsidir. Onlarla ali mükafatların daşıyıcısıdır.



Bəli, Azərbaycanın Birinci Xanımının humanist prinsipləri, insanların taleyinə olan isti münasibəti çoxşaxəli fəaliyyətində özünü göstərir. Bu gün Mehriban xanım Əliyeva milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr verir. Azərbaycanın Birinci Xanımının Azərbaycan üçün gördüyü işlər ölkəmizin ictimai-siyasi və mədəni həyatında danılmaz amillərdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ FƏDAKAR ƏMƏYİ İLƏ DAİM SEÇİLİR

Uzun illər ölkənin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyeva Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı Sərəncamla Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. "...Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı Ona böyük rəğbət və sevgi ilə yanaşır", - bu sözləri Azərbaycan Prezidenti Cənab İlham Əliyev Mehriban xanım Əliyevanın ünvanına söyləyib. Artıq Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir. Ötən qısa müddətdə əldə olunan uğurlar təsdiqləyir ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin çevikliyini və səmərəliliyini artırıb.

Birinci vitse-prezident kimi fəaliyyətini sosial məsələlərin, əhalinin aztəminatlı hissəsinin problemlərinin həlli üzərində qurmaq niyyətində olduğunu bəyan edən Mehriban xanım Əliyeva mərhəmətsizlik və laqeydliyin qorxulu anlayış olduğunu diqqətə çatdıraraq, istər ictimai xadim, istərsə də dövlət məmuru üçün humanizmi qorumağın vacib olduğunu vurğulayıb. O, vitse-prezident kimi ilk addımını ən çətin sahədə atmış oldu. Belə ki, qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində atdığı ardıcıl addımlar öz nəticəsini verib. Birinci vitse-prezidentin diqqət və qayğısı sayəsində "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində işlər uğurla davam etdirilir. Artıq layihə çərçivəsində çoxlu sayda mənzil məcburi köçkün soydaşlarımızın ixtiyarına verilib.

Ötən bir il ərzində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən mühüm layihələrdən biri də 2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimizin fəal həyat tərzinin təmin olunması oldu. Hər birinə fərdi yanaşma nümayiş etdirilərək, fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və fərdi tələbləri əsasında aprel döyüşlərinin xəsarət almış qəhrəmanları yüksək texnologiyalara əsaslanan müasir protezlərlə təmin edildi. Bununla dövlət vətənin azadlığı uğrunda sağlamlığını itirən heç bir hərbçisini diqqətdən kənarda qoymadı, onların hər biri birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olundu.

Bu gün Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini, UNESCO və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva təmsil olunduğu bütün sahələrdə fədakar fəaliyyəti ilə seçilir. "...Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə, özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur". Mehriban Əliyeva hər bir ifadəsində təvazökar olduğunu göstərir. Böyük işləri, amalları ilə diqqətdə olan Mehriban xanım Əliyeva həyat və vəzifə missiyası ilə bir etalon olaraq insanların böyük sevgisini qazanıb. Bu isə, hər ən böyük mükafatdır: xalqın SEVİMLİSİ olmaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə Azərbaycan xalqının dərin rəğbətini və sevgisini qazanıb



## *YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, müasir Azərbaycan dövlətinin davamlı inkişafını təmin edən çoxsaylı amillər mövcuddur. Həyata keçirilən davamlı islahatlarla yanaşı, xalqın və dövlətin maraqlarını müdafiə edən addımlar da milli tərəqqiyə əhəmiyyətli töhfələr verir. Bu baxımdan, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ali məramlı fəaliyyəti ayrı-ayrı sahələrin inkişafında və ölkəmizin beynəlxalq nüfuzunun artmasında müstəsna rol oynayır. Bu barədə nə düşünürsünüz?***

- Bu gün Azərbaycan beynəlxalq müstəvidə nüfuzlu, özünəməxsus inkişaf modelinə malik olan və demokratik ölkə kimi tanınır. Heç şübhəsiz, ötən müddət ərzində Azərbaycanın müxtəlif sahələrdə möhtəşəm və tarixi nailiyyətlər əldə etməsini təmin edən fundamental amillər mövcuddur. Bu amillərin başında, əlbəttə ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasətinin Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi gəlir. Ümumiyyətlə, dövlətimizin milli maraqlarına, müasir dünyanın reallıqlarına, çağırışlarına uyğun mövqe və siyasət Azərbaycanın müstəqil dövlət kimi davamlı - dayanıqlı inkişafını təmin edən əsas amildir. Bu baxımdan, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dövlətimizin milli maraqlarına və xalqın mənafeyinə xidmət edən çoxşaxəli fəaliyyəti xüsusilə qeyd edilməlidir.

Hər şeydən əvvəl, Mehriban xanım Əliyeva öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlıdır. Mehriban xanım Əliyeva qeyd etmişdir: "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır". Bu fikirlər Mehriban xanım Əliyevanın həyat kredosunu tamamilə əks etdirir. Mehriban xanım Əliyevanın müxtəlif vəzifə və statuslarda bu zamana qədərki fəaliyyəti - Azərbaycan naminə gördüyü genişmiqyaslı işlər cəmiyyətdə ona böyük inam və rəğbət yaradıb. Bu gün hər bir Azərbaycan vətəndaşı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini olduqca yüksək qiymətləndirir.

***- Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli liderimizin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Fondun ötən müddət ərzində həyata keçirdiyi çoxşaxəli fəaliyyətin nəticələrini necə qiymətləndirirsiniz?***

- Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bu zamana qədər müxtəlif sahələri əhatə edən və böyük əhəmiyyətə malik olan çoxsaylı layihələr reallaşdırılıb. Bu layihələrin hamısı müasir müstəqil Azərbaycanın inkişafına mühüm töhfələr verməklə yanaşı, xalqa və dövlətə xidmət prinsipinə söykənib. İstər Azərbaycan mədəniyyətinin və xalqımızın milli-mənəvi dəyərlərinin dünyaya daha yaxından tanıdılması, istər Xocalı faciəsi kimi ümummilli məsələlər barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, istərsə xeyriyyəçilik və digər istiqamətləri əhatə edən layihələrin müsbət nəticələri göz önündədir.

Fondun çoxşaxəli fəaliyyətindən bəhs edən Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun öz fəaliyyətini humanizm prinsipləri əsasında qurduğunu bildirərək deyib ki, "biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik". Fondun ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmadığını deyən Mehriban xanım Əliyeva vurğulayıb ki, insanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir.

Heydər Əliyev Fondu bir çox sahələrdə səmərəli layihələr həyata keçirməklə yanaşı, təhsilin inkişafı istiqamətində də mühüm təşəbbüslərlə çıxış etmiş, bu sahədə genişmiqyaslı işlərin altına imzasını atmışdır. Bu baxımdan, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını xüsusi olaraq qeyd etmək lazımdır. Bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb və qarşıya qoyulan məqsədlərə müvafiq olaraq həyata keçirilən tədbirlər səmərəli nəticələr verib.

Bununla yanaşı, Fondun dəstəyi ilə paytaxt Bakıda və respublikanın bölgələrində çoxlu sayda körpələr evinin, uşaq bağçasının, xüsusi təyinatlı uşaq müəssisəsinin yüksək səviyyədə təmir olunması və hər cür avadanlıqla təchiz edilməsi də xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fondun təkcə "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində çoxsaylı internat və uşaq evi yenidən qurulub. Ümumiyyətlə, Mehriban xanım Əliyeva daim uşaqları diqqətdə saxlayır, xüsusən də valideyn qayğısından məhrum olan, kimsəsiz uşaqların əsl himayəçisi kimi fəaliyyət göstərir. Heydər Əliyev Fondu tərəfindən uşaq və yeniyetmələrin sağlamlığı, təhsili, hərtərəfli inkişafı üçün mühüm layihələr həyata keçirilir.

Göründüyü kimi, Heydər Əliyev ideyalarını böyük ruh yüksəkliyi ilə və ardıcıl şəkildə həyata keçirən Fondun fəaliyyəti sırf dövlətin milli maraqlarına, milli-mənəvi dəyərlərə söykənir.

***- Azərbaycanın birinci xanımı milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində də genişmiqyaslı fəaliyyət göstərir. Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətinin çox vacib istiqamətlərindən biri məhz Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunub saxlanması, təbliğ edilməsi və dünya ictimaiyyətinə tanıdılmasıdır. Bununla bağlı düşüncələriniz nədən ibarətdir?***

- Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir. Bu fəaliyyətin məntiqi nəticəsi kimi, Azərbaycanın zəngin tarixi və mədəni irsi dünyaya çatdırılır, ölkəmizin müsbət reallıqları beynəlxalq ictimaiyyətin diqqət mərkəzində yer alır. Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə mühüm əlaqələrə malik olması da Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində xüsusi əhəmiyyətə malikdir. Muğam və aşıq sənətinin, tar ifaçılıq sənətinin və Azərbaycan xalçasının UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Mehriban xanım Əliyevanın fəaliyyəti və xidmətlərinin nəticəsidir. "Hər bir xalqın, hər bir millətin ən böyük sərvəti onun mədəni irsidir. Azərbaycan qədim və zəngin tarixə, mədəniyyətə malik olan bir ölkədir. Əsrlər boyu bizi bir millət kimi qoruyub saxlayan mədəni irsimiz, dilimiz, ədəbiyyatımız, poeziyamız, musiqimiz olub. Muğam isə əsl sənət incisidir. Təsadüfi deyil ki, Azərbaycan muğamı UNESCO-nun bəşəriyyətin mədəni irsinin şah əsərləri siyahısına salınıb və çox sevindirici haldır ki, artıq bu siyahıda Azərbaycan tarı və tar ifaçılığı da vardır. Bu, bizim mədəni irsimizə, mədəni irsimizin qorunmasına dünya miqyasında göstərilən diqqətin və qayğının göstəricisidir",-deyən Mehriban xanım Əliyeva, sözün əsl mənasında, Azərbaycan mədəniyyəti və incəsənətinə xüsusi diqqət və qayğı ilə yanaşır. Azərbaycan musiqisinin dünyada təbliği və ölkəmizin beynəlxalq mədəniyyət mərkəzinə çevrilməsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

Həqiqətən də, Azərbaycan muğamının, Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun, İçərişəhərin, Qız qalasının, Şirvanşahlar Sarayı Kompleksinin UNESCO-nun dünya mədəni irs siyahısına, aşıq, xalçaçılıq, tar ifaçılığı sənətlərinin, Novruz bayramının, dolma, lavaş və kəlağayının, Lahıc misgərlik sənətinin, Çövkən oyununun UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə reprezentativ siyahısına daxil edilməsi məhz Mehriban xanım Əliyevanın çoxşaxəli və məqsədyönlü fəaliyyətinin nəticəsidir.

***- Mehriban xanım Əliyeva müsahibələrinin birində qeyd edib ki, xeyriyyəçilik - insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyəti olduqca yüksək qiymətləndirilməklə yanaşı, gələcək nəsillər üçün çox mühüm örnəkdir...***

- Ümumiyyətlə, Mehriban xanım Əliyevanın genişməzmunlu və çoxşaxəli fəaliyyəti humanizm prinsipinə əsaslanır. Bu baxımdan, xeyriyyəçilik Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edən mühüm amillərdən biridir və özündə ali dəyərləri əks etdirir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə müasir, müstəqil Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Mehriban xanım Əliyeva müsahibələrinin birində qeyd etmişdir: "...Xeyriyyəçilik - insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir. Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır".

İnsanların ümidlərini doğrultmaq və xeyirxahlıq etmək Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində aparıcı istiqamətlərdəndir. Təsadüfi deyil ki, qarşıya qoyduğu bütün layihələri uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğbət qazanıb, xeyirxahlığın ali ünvanı kimi tanınıb. Fondun vətəndaşların hər bir müraciətinə həssas yanaşması insanlara yüksək səviy-

yəli diqqət və qayğının bariz nümunəsidir.

***-Yeri gəlmişkən, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə uğurla keçirilən mötəbər tədbirlərin Azərbaycanın beynəlxalq nüfuzunun artmasında əhəmiyyəti və rolu nədən ibarətdir?***

- Bu gün Azərbaycan dünya miqyasında tolerantlıq məkanı kimi tanınır, sivilizasiyalararası dialoqa əhəmiyyətli töhfələr verir. Azərbaycan müsbət beynəlxalq imicə və yüksək nüfuza malikdir. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq tədbirlərin keçirilməsi sabitlik mühiti və dinamik inkişafı ilə fərqlənən Azərbaycana həvalə edilir. Sevindirici haldır ki, Azərbaycan bu zamana qədər bütün nüfuzlu, mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib.

Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə müvəffəqiyyətlə ev sahibliyi etməsindən bəhs edərkən Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığının əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Əvvəla qeyd edək ki, Mehriban xanım Əliyevanın nüfuzlu yüksək təşkilatçılıq bacarığı sayəsində "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsi Azərbaycanda uğurla keçirildi və bütün dünyanın diqqət mərkəzində oldu. "Bakı-2015" ilk Avropa Oyunlarının, eyni zamanda, ötən il baş tutmuş IV İslam Həmrəylik Oyunlarının yüksək səviyyədə keçirilməsi - beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilməsi məhz Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi təşkilat komitələrinin uğurlu fəaliyyətinin nəticəsidir.

Bir məqama da xüsusi olaraq nəzər salmaq lazımdır. Belə ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan ilə məhdudlaşmır, daha geniş coğrafiyanı əhatə edir və sözün əsl mənasında, xalqlar və mədəniyyətlərarası əlaqələrin inkişafına dəyərli töhfə verir. Bunun da nəticəsidir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir O, həm də xalqlararası münasibətlərin və sivilizasiyalararası dialoqun inkişafına özünəməxsus töhfələr verir ki, bu da beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Ötən il Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif etməsi bu nümunələr sırasında yer alır. Bununla yanaşı, digər çoxsaylı təltiflər Mehriban xanım Əliyevanın beynəlxalq əhəmiyyətli fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

***- Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti də ölkəmizin inkişafı və beynəlxalq miqyasda nüfuzunun artması - imicinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bu barədə nə deyə bilərsiniz?***

- Məlumdur ki, Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib. Şübhəsiz ki, bu, xalqımız və dövlətimiz üçün çox əlamətdar hadisədir. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyevanı təqdim edərək deyib: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".

Mehriban xanım həm Milli Məclisin deputatı, həm də Heydər Əliyev Fondunun prezidenti kimi milli maraqlara əsaslanan uğurlu fəaliyyət göstərib. O, Milli Məclisin deputatı olarkən mühüm qanunvericilik təşəbbüsləri ilə çıxış edib və bu təşəbbüslərin hamısı xalqın mənafeyinə xidmət edib. Mehriban Əliyeva Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi də səmərəli fəaliyyəti ilə yadda qalıb. Buna paralel olaraq Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Fransada ölkəmizlə bağlı mühüm mədəniyyət tədbirləri keçirib, Azərbaycan reallıqları uğurla təbliğ olunub. Mehriban Əliyevanın Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" ali dövlət ordeni ilə təltif olunması da bu baxımdan xüsusi vurğulanmalıdır.

Mehriban xanım Əliyeva, eyni zamanda, sıralarında 700 mindən çox insanı birləşdirən Yeni Azərbaycan Partiyasının Sədr müavinidir və partiyanın nüfuzunun daha da artmasına, ölkəmizin inkişafına öz layiqli töhfəsini verməkdədir. Bir sözlə, o, öz fəaliyyəti ilə Azərbaycan xalqının sevgisi və rəğbətini qazana bilib. Bütün bu amillər Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsini şərtləndirib. Reallıq budur ki, Mehriban xanım Əliyeva hazırda Birinci vitse-prezident kimi uğurla fəaliyyət göstərir, öz fəaliyyətində xalqımızın mənafeyini, dövlətimizin maraqlarını əsas götürür. Azərbaycanın Birinci vitse-prezidenti öz fəaliyyəti ilə ölkəmizin inkişafına dəyərli töhfələr verir, respublikamızı beynəlxalq miqyasda uğurla təmsil edir.

# Vüqar Rəhimzadə: "Xeyirxahlıq, humanistlik Mehriban xanım Əliyevanın həyat amalıdır"

"Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Azərbaycan Gimnastika Federasiyasının rəhbəri, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə bir daha nəzər salsaq, hər addımın əsasında xeyirxahlığın, humanizmin, səmimiyyətin, vətəndaşlıq təəssübkeşliyinin yüksək səviyyədə qorunduğunun şahidi olarıq. Mehriban xanım Əliyevanın "Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir" fikri qazandığı uğurların, gördüyü işlərin bələdçisidir. Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdimatında bu prinsipləri də diqqətə çatdırmışdır: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət və mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq, ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar." Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına, Azərbaycan xalqının zəngin mədəniyyətinə, milli- mənəvi dəyərlərinə dərindən bağlılıq Mehriban xanım Əliyevanın həyat amalına çevrilib, zaman-zaman daha geniş sahələri əhatə edib. Heydər Əliyev Fondunun prezidenti kimi Ümummilli Liderin irsinin təbliği ilə məşğul olan Mehriban xanım Əliyeva Azərbaycan xalqının tarixinin, mədəniyyətinin xarici ölkələrdə daha yaxından tanıdılması sahəsində çox böyük uğurlara imza atıb.

Uğurlarımıza davamlı töhfələri ilə diqqət çəkən Mehriban xanım Əliyevanın xidmətlərinin miqyası ölçüyəgəlməzdir. Azərbaycan reallıqlarının təbliği istiqamətində dünyanın müxtəlif ölkələrində keçirilən tədbirlər, təqdimatlar, hazırlanan vəsaitlər, nəşr edilən kitablar məqsəd və məramın açıqlanmasına yardımçı olur. Mehriban xanım Əliyevanın xidmətləri Azərbaycanın dövlətlər, xalqlar arasında körpü roluna yeni töhfələr verir. Onun milli-mənəvi dəyərlərimizin, tariximizin qorunması və təbliği istiqamətində atdığı addımlar Azərbaycan-YUNESKO əlaqələrinin bugünkü inkişafında, gələn il qurumun Ümumdünya İrs Komitəsinin növbəti 43-cü sessiyasının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul olunmasında stimulverici amil rolunu oynamışdır. Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri YUNESCO-nun müvafiq siyahılarında yer almışdır. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin YUNESKO-nun nadir, şah əsərləri siyahısına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın davamlılığına xidmət edən töhfələrdir.

V.Rəhimzadə xatırladıb ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə "Eurovision" mahnı yarışmasının, eyni zamanda, Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi Azərbaycanın malik olduğu imkanların dünyaya təqdimatında əhəmiyyətli rol oynamışdır. Məqsəd ötən hər günü tarixinə uğur səhifəsi kimi yazan Azərbaycanın beynəlxalq aləmdə yerini və rolunu möhkəmləndirmək, həqiqətlərimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdır.

Baş redaktor Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti sırasında Milli Məclisin deputatı olarkən gördüyü işlərdən, qazandığı seçici etimadından da geniş bəhs edib. Bildirib ki, sözü ilə əməli bir olan, verdiyi vədləri layiqincə yerinə yetirən, mühüm problemlərin həllinə yüksək səviyyədə nail olan Mehri-



ban xanım Əliyevanın gördüyü işlər insanlarda böyük ruh yüksəkliyi yaradıb.

V.Rəhimzadə vurğulayıb ki, Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edən prinsiplərin dəyişməzliyi onun uğurlarının müşaiyətçisidir. Mehriban xanım Əliyevanın özünün də vurğuladığı kimi, insanın malik olduğu imkanlar, eyni zamanda, Allah- Taalanın köməkliyi yüksək nəticələrin əldə olunmasına, qarşıya qoyulan məqsədlərə nail olmağa yol açır: "Mehriban xanım Əliyevanın aldığı mükafatlar, fəxri adlar onun fəaliyyətinin nə dərəcədə çoxşaxəli olduğuna əyani sübutdur. Ən böyük mükafat isə xalqın sevgisidir. Dövlətimizin başçısı İlham Əliyev Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən bildirib: "Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır." Ölkə Prezidentinin bu etimadını yüksək dəyərləndirən Mehriban xanım Əliyeva "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam" vədini verməklə, istər bu günədək Heydər Əliyev Fondunun prezidenti, istərsə də son bir ildən artıq dövr ərzində Azərbaycanın Birinci vitse-prezidenti kimi bütün fəaliyyətini, məhz bu prinsiplər üzərində qurub."

# Azərbaycanlı gənclər Amerikada gənclər evlərinin təcrübələri ilə tanış olublar

Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və ölkədə fəaliyyət göstərən gənclər evlərinin rəhbərləri ABŞ Dövlət Departamentinin "Beynəlxalq Ziyarətçilərin Liderlik Proqramı" (IVLP) çərçivəsində Amerikanın 4 ştatında gənclər evlərinin fəaliyyəti və gənclərlə iş sahəsindəki təcrübələri ilə yaxından tanış olublar.



Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə məlumat verən Gəncə Gənclər evinin rəhbəri Amil Qurbanov bildirib ki, səfər çərçivəsində ABŞ Dövlət Departamentinin əməkdaşları ilə Azərbaycanın nümayəndə heyəti arasında görüş olub. Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivləri, ABŞ səfirliyi və Gənclər evləri arasında qurulacaq əlaqələr, eləcə də birlikdə həyata keçiriləcək layihələr müzakirə edilib. Səfər zamanı Birləşmiş Ştatların ayrı-ayrı şəhərlərində gənclərlə də görüşlər keçirilib. Həmçinin Corctaun, İova və İnkarneyt Uord universitetlərinin idarə heyətlərinin üzvləri ilə görüşdə gələcək əməkdaşlıq diqqət mərkəzində olub.

Azərbaycanın nümayəndə heyətinin üzvləri bir sıra qeyri-hökumət təşkilatları, uşaq evləri və gənclər mərkəzlərində gənclərin inkişafı ilə bağlı tədbirlərə qatılıb, təcrübə mübadiləsi aparıblar.

# Bəhruz Quliyev: "Merkelin Azərbaycana səfəri iki ölkə münasibətlərini daha da inkişaf etdirəcək"

Almaniya Kansleri Angela Merkelin Azərbaycana gözlənilən səfəri bir sıra əhəmiyyətli məqamları ilə seçilir. SİA-nın məlumatına görə, bunu Trend-ə siyasi ekspert Bəhruz Quliyev sözügedən məsələyə münasibət bildirərkən deyib. Ekspertin sözlərinə görə, Almaniyanın Avropa İttifaqının (Aİ) lider ölkələrindən olduğu nəzərə alınsa, belə qənaətə gəlmək olar ki, xanım A.Merkel Azərbaycanla daha sıx əməkdaşlıqda həm Almaniyanın, həm də Aİ-nin maraqlarını ifadə edəcək: "Almaniya ilə Azərbaycan arasındakı əməkdaşlıq, o cümlədən, Avropa ilə beynəlxalq münasibətlərin qurulması bir sıra tarixi aspektlərlə əsaslandırıla bilər. Hələ ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin ilk dövrlərində bu istiqamətdə əsaslı addımlar atılmışdı. Buna misal olaraq, biz 1995-1996-cı illərdə imzalanmış "Azərbaycan Respublikası hökuməti və Almaniya Federativ Respublikası hökuməti arasında maliyyə əməkdaşlığı haqqında", "İnvestisiyaların təşviqi və qorunması haqqında", "Mədəni əməkdaşlıq haqqında", "Hava daşımaları haqqında", "Bakı hava limanı: təcili yardım" layihəsi üzrə növbəti maliyyə əməkdaşlığı barədə", "Tədqiqatlar və mütəxəssislər fondunun yaradılması haqqında" və digər hökumətlərarası sazişləri göstərə bilərik. Bu gün bu əməkdaşlıq və yaxınlıq siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".



B.Quliyev bildirib ki, ümumiyyətlə, bu gün Almaniya Azərbaycanın Avropada etibarlı tərəfdaş kimi münasibətlərini ildən-ilə inkişaf etdirdiyi ölkələrdən biridir: "Azərbaycan iqtisadiyyatına kapital qoyuluşunun həcminə görə Almaniya şirkətləri qabaqcıl mövqeyə malikdir. "Volkswagen", "Mannesmann-Demag", "Siemens" və "Wirtgen" kimi nüfuzlu şirkətlər Azərbaycandakı fəaliyyətlərində ciddi uğurlar qazanıblar. Bütün bunlarla yanaşı, qeyd edə bilərəm ki, hazırda ölkələrimiz arasında 3 milyard avroya yaxın ticarət mübadiləsi mövcuddur. Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində, TAP, TANAP kimi nəhəng enerji layihələrinin həyata keçirilməsində, eləcə də "Şərq Tərəfdaşlığı" proqramında mühüm rol oynayır. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində, ölkəmizdə infrastruktur layihələrinin icrasında Almaniyanın yeni şirkətləri də iştirak etməkdə daim maraqlı olduqlarını gizlətməyiblər, bu istiqamətdə davamlı işlər aparılıb".

Siyasi ekspert hesab edir ki, bəzi siyasi dairələrin Almaniya Kanslerinin Azərbaycanda keçirdiyi görüşlərdə "siyasi məhbus", yaxud insan haqları kontekstindən çıxış edəcəyini bildirmələri əsassız və reallığa bağlı olmayan iddialardır: "Çünki bu gün Azərbaycanda heç kim siyasi baxışlarına görə təqib olunmur. Azərbaycan hüquqi dövlətdir və qanunları pozan insanlar məhz qanunlar qarşısında da cavab verirlər. Ona görə də bənzər iddialar sadəcə, qaranlıq niyyətlərin məhsulu olaraq görülə bilər".

Almaniya dövlətinin beynəlxalq və regional təşkilatlarda, eyni zamanda maliyyə qurumlarında həlledici səs hüququna malik olduğunu deyən B.Quliyev onu da deyib ki, bu ölkənin Avropadakı siyasi çəkisi hər zaman özünü göstərib: "Almaniya hökumətinin razılığı olmadan Aİ, Avropa Şurası, NATO və ATƏT kimi beynəlxalq təşkilatların fəaliyyət istiqamətlərində hansısa ciddi dəyişiklik edilə bilməz. Əgər rəsmi Bakı rəsmi Berlinlə əməkdaşlığın uğurla həyata keçirilməsi üçün konkret addımlar atırsa, demək ki, həmin əməkdaşlığın Avropaya da sirayət etməsi mütləqdir. Əbəs deyil ki, Prezident İlham Əliyevin müxtəlif vaxtlarda Almaniya Federativ Respublikasına işgüzar səfərləri bilavasitə ikitərəfli əməkdaşlığın aktiv fazaya daxil olmasını təmin edib və etməkdədir".

B.Quliyev A.Merkelin Bakıya səfərinin Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə təsirindən də danışıb: "Almaniyanın danışıqlar prosesində vasitəçi olaraq çıxış etmək təklifləri dəfələrlə səsləndirilib və rəsmi Bakı bu təkliflərə birmənalı olaraq dəstək göstərib. Təəssüf ki, danışıqlar prosesində heç bir irəliləyiş yoxdur və təbii olaraq, Almaniya vasitəçiliyini təqdim etməklə, bu yöndə təşəbbüskar ölkə olaraq çıxış etmək niyyətini ortaya qoymaqla bir daha sübut edir ki, Cənubi Qafqaz regionunda sülh və əmin-amanlığın, təhlükəsizliyin tərəfdarıdır. Almaniya Kanslerinin Azərbaycana səfərinə bu prizmadan yaxınlaşsaq, Merkelin bölgəyə səfərinin münaqişənin həllinə mühüm töhfə verəcəyini də istisna edə bilmərik".

## "Almaniyanın Azərbaycanla münasibətləri təkcə enerji ehtiyatları ilə bağlı deyil"

"Almaniya Kansleri Angela Merkelin səfəri Gürcüstan, Ermənistan və Azərbaycana nəzərdə tutulsa da, əsas məqsəd Azərbaycanla münasibətləri daha yüksək səviyyəyə qaldırmaqdan ibarətdir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.



O bildirib ki, Ermənistan dalana dirənən, heç bir perspektivi olmayan dilənçi bir dövlətdir: "Gürcüstan demokratik prinsiplərlə yaşayan, qonşu dövlətlərlə yaxşı münasibət quran, ancaq iqtisadi potensialı zəif olan bir dövlətdir. Azərbaycanın iqtisadi potensialı Cənubi Qafqazın 80 faizini təşkil edir. Ölkəmiz bu gün özünün neft, qaz resursları ilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Azərbaycan bu gün sivil, demokratik eyni zamanda Şərq koloritini özündə əks etdirən müasir dövlətdir".

A.Mirzəzadə vurğulayıb ki, Azərbaycanla münasibət qurmaq artıq Şərqlə münasibətlərin qurulması deməkdir: "Ölkəmizin potensialından istifadə etməklə yeni məqsədlərə doğru irəliləmək deməkdir. Almaniyanın Azərbaycanla münasibətləri təkcə enerji ehtiyatları ilə bağlı deyil, alman şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qurması, ölkəmizin sərbəst kapitalının Almaniyanın bu gün ehtiyac duyulan sahələrinə cəlb edilməsi, yaxın Şərq, region məsələlərinin müzakirə edilməsi bu gün gündəlikdə duran əsas məsələlərdir ". Deputat qeyd edib ki, Azərbaycanın uğurlu dövlətçilik siyasəti bu gün böyük dövlətlərin, ilk növbədə Almaniyanın diqqətini cəlb edir: "Xanım Angela Merkelin Azərbaycan səfəri eyni zamanda Almaniyanın Dağlıq Qarabağ probleminin həllində yaxından iştirakına dəstək verəcək addım olmalıdır".

## Politoloq: "Merkelin səfəri zamanı DQ münaqişəsi müzakirə ediləcək"

"Almaniya Kansleri Angela Merkelin regiona səfərinin məqsədləri müxtəlifdir. Çünki, kansler Cənubi Qafqazda həm Gürcüstan, həm Ermənistana, daha sonra isə Azərbaycana səfər edəcək. Hesab edirəm ki, Merkelin Azərbaycana səfərinin əsas məqsədi isə Cənubi Qaz Dəhlizidir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.



Səfər zamanı Azərbaycan qazının Avropaya nəqli ilə bağlı məsələlərin müzakirə olunacağını deyən politoloq söyləyib ki, hazırkı gərgin geosiyasi vəziyyətdə Azərbaycan Cənubi Qafqazda təbii ehtiyatların Avropaya nəqlində böyük rol oynamaqla yanaşı, həm də regionda önəmli oyunçuya çevrilib.

Politoloq söyləyib ki, Almaniya Avropanın aparıcı ölkəsi kimi Azərbaycanın təbii resurslarında maraqlıdır və bunu açıq şəkildə bildirir: "Almaniya Azərbaycan qazında maraqlıdır. Xüsusilə də ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyalar, Avropa İttifaqının ABŞ-la münasibətlərinin gərginləşməsi fonunda bu məsələlərin daha ciddi şəkildə müzakirə olunacağını düşünürəm".

F. Sadıqov qeyd edib ki, səfər zamanı Azərbaycan və Almaniya arasında müxtəlif sahələr üzrə ikitərəfli münasibətlərin müzakirə edilməsi də nəzərdə tutulub: "Belə ki, bura siyasi, humanitar, iqtisadi, sosial və digərləri daxildir. Səfər zamanı Dağlıq Qarabağ münaqişəsinin müzakirə ediləcəyinə şübhə etmirəm. Hesab edirəm ki, münaqişənin həlli əsas müzakirə ediləcək məsələlərdən biri olacaq. Burada Azərbaycan diplomatiyasından çox şey asılıdır. Aparılacaq müzakirə zamanı çalışmalıyıq ki, Almaniya aparıcı Avropa dövləti kimi Azərbaycanın reallıqlarını daha qabarıq və dərin şəkildə dərk etsin və beynəlxalq təşkilatlarda bizi dəstəkləsin". Politoloq əlavə edib ki, Azərbaycanın əsas məqsədi münaqişənin həllində beynəlxalq hüquq normalarının əməl olunması, Avropa tərəfindən qəbul olunan qətnamə və qərarların yerinə yetirilməsidir: "Burada təbii ki, Almaniyadan da çox şey asılıdır. Belə ki, Almaniyanın qəti mövqeyi və yanaşması problemin həllinə öz töhfəsini verə bilər".

# "Xoş söz, xoş niyyət, xeyirxah əməl"

Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən Şuşa rayon Malıbəyli kənd 1 nömrəli tam orta məktəbdə "Xoş söz, xoş niyyət, xeyirxah əməl" adlı aksiya keçirildi. İlk olaraq məktəblilərə "Ana, məni bağışla" adlı kiçik səhnəcik təqdim olundu. Məktəblilərin maraqla izlədikləri kukla tamaşası sona çatdıqdan sonra onları maraqlandıran suallar tamaşanın qəhrəmanı Aişə tərəfindən cavablandırıldı.



Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılmasının dövlət siyasətinin prioritetini təşkil etdiyini diqqətə çatdırdı: "Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasəti qaçqın və məcburi köçkünlərin həyat səviyyəsini xeyli yüksəltmişdir. Bu qəbildən olan insanlar üçün hər cür infrastruktura malik mənzillər tikilmiş, qəsəbələr salınmış, yeni iş yerləri yaradılmış və onların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində müvafiq dövlət proqramları qəbul olunmuşdur. Bu xeyirxah missiya Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də uğurla davam etdirilir. Uşaqlara şəfqət, mərhəmət göstərilməsi, ailəyə, vətənə bağlılıq duyğuları aşılamaq onların tərbiyəsi, sağlam böyüməsi, böyüklərin sevgisi ilə əhatə olunması, gənclərin kamil bir vətəndaş kimi yetişməsi, onları vətənpərvər ruhda tərbiyə etmək - bütün bunlar Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olmuşdur. Mehriban xanımın Birinci vitse-prezident təyin edildikdən sonra ilk görüşünü məcburi köçkünlərlə keçirməsi də bu qəbildən olan insanlara diqqət və qayğıdan xəbər verir".

M.İbrahimqızı çıxışında onu da qeyd etdi ki, YAP Nəsimi rayon təşkilatı da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qaçqın və məcburi köçkünlərin problemlərinin və qayğılarının həlli istiqamətində həyata keçirdiyi əhəmiyyətli və böyük layihələrdən örnək alaraq, dövlətimizin apardığı bu siyasət çərçivəsində qaçqın və məcburi köçkünlərlə mütəmadi görüşlər keçirir, onların qayğı və problemləri ilə tanış olur. Növbəti belə bir tədbirin qaçqın və məcburi köçkün uşaqlara psixoloji yardımın göstərilməsidir.

Tədbirdə çıxış edən klinik-psixoloq Roza Kazımlı məktəblilərlə keçirilən görüşlərin əhəmiyyətini diqqətə çəkərək, uşaqlarda psixoloji problemlərin üzə çıxarılmasında rolu olduğunu bildirdi. Məktəbin direktoru Günəş Hüseynova çıxışında belə tədbirlərin keçirilməsinin əhəmiyyətinə toxunaraq, aksiyanın təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Sərhədləri aşan Azərbaycan muğamı

## *26 Avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günü kimi qeyd olunur*



***Azərbaycan muğamı dünya ölkələrində, birmənalı olaraq, qəbul edilir, dünyanın mədəni irs siyahısında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər, ermənilər, ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır.***

### MUĞAM İFAÇILIĞININ YAYILMASINDA VƏ ONUN PROFESSİONAL ŞƏKİL ALMASINDA ƏDƏBİ VƏ MUSİQİ MƏCLİSLƏRİNİN ROLU

Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd, onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyük dəstgahdır. Professional muğam sənətinin tarixinə mənbələr əsasında diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Muğamın tarixinə diqqət etdikdə, görürük ki, Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qrupu dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib-hazırlamışdır. 20-ci və 30-cu illərdə tədris versiyaları ilə yanaşı olaraq, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar. Onlardan ən məşhuru Şuşada “Məclisi-Fəramuşan”, “Məclisi-Üns”, Musiqiçilər Cəmiyyəti, Şamaxıda “Beytüs-səfa” və Mahmud ağanın musiqi məclisi, Bakıda “Məcmə-üş-şüəra”, Gəncədə “Divani-hikmət”, Ordubadda “Əncümən-üş-şüəra”, Lənkəranda “Fövcül-füsəha” idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə, ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şerin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündən XIX yüzil - XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan, kamilləşmələrində güclü stimul rolunu oynamışdı.



XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi, formal olaraq 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə, 5-10 il praktik çıxışlardan tez olmayaraq, çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsl professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi özlüyündə muğamı şifahi ənənəli professional sənət səviyyəsinə qaldırır.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü “dəmir pərdə” siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilliyin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi, sovet Şərqinin ənənəvi musiqiçiləri də belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq, Qərbin bədii məkanında müasir Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya (“doloy tar!”, “doloy muğam”) tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

XX yüzilin 90-cı illərindən başlayaraq, Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

Muğam sənəti XX yüzillikdə Azərbaycan bəstəkarlarının yaradıcılığına ilham verən qaynaq olmuş və olaraq qalır. 1908-ci ildən - Bakıda Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Azərbaycanda professional musiqi teatrının başlanğıcı olan ilk operasının səhnəyə qoyulduğu tarixdən muğamlar Azərbaycan musiqisindən bir çox musiqi əsərlərinə və yeni janrlara həyat vermişdir. Sonuncular sırasında - muğam operası, simfonik və xor muğamları, sonata-muğam və caz-muğam göstərilə bilər. Azərbaycan bəstəkarlarının ayrı-ayrı əsərlərinin bu gün də böyüməkdə olan çox uzun bir siyahısı muğam ənənələrinə əsaslanır.

### MUĞAMI QORUMAQ, İNKİŞAF ETDİRMƏK MƏQSƏDİ İLƏ HEYDƏR ƏLİYEV FONDU İRİMİQYASLI LAYİHƏLƏR HƏYATA KEÇİRİR

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. “Azərbaycan muğamları” layihəsi çərçivəsində “Qarabağ xanəndələri” musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək, həyata keçirilir. İlk olaraq, fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub-saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq, hər il ardıcıl olaraq, muğam müsabiqəsi keçirilir.

Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərlərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürurlanmaqda haqlıdır. Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Gününün elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Dünya miqyasında keçirilən musiqi festivalı çərçivəsində Azərbaycanın simfonik musiqisi və muğamı günləri təşkil olunur. Konsertlər çərçivəsində “Qarabağ şikəstəsi”, “Cahargah”, “Heyratı” muğamları ilə yanaşı, Üzeyir Hacıbəylinin, Cövdət Hacıyevin, Qara Qarayevin, Müslüm Maqomayevin və digər klassiklərimizin əsərləri Kanadanın “İpək Yolu” Kamera Orkestrinin ifasında səsləndirilir.

**ZÜMRÜD**

# AXCP və Müsavat Merkelin Bakı səfərinə kölgə salmağa cəhd etsə də...

## *Radikal müxalifətin çirkin məqsədləri bir daha bəlli oldu*

***Almaniyanın kansleri Angela Merkelin Cənubi Qafqaz səfəri çərçivəsində ölkəmizi də ziyarət etməsi və rəsmi görüşlər keçirməsi ətrafında Qərb mediası bir sıra məqamlara toxunub. Belə ki, media Merkelin səfərində əsas məqsədin Avropa üçün Azərbaycanın idarə etdiyi "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsi olduğu bildirilir. Qeyd edilir ki, Almaniya "Cənub Qaz Dəhlizi"nə regiondakı digər ölkələri də cəlb etməyi arzulayır. Bu baxımdan, bildirilir ki, Merkel Bakıda enerji məsələlərini, Azərbaycandan qazı Türkiyə vasitəsilə Avropaya nəql edəcək infrastrukturun təkmilləşdirilməsini müzakirəsinin əsas mövzulardan biri kimi təqdim edəcək.***

Bu kimi əhəmiyyətli məqamlarda özlərini "müxalifət liderləri" elan edən AXCP və Müsavat rəhbərliyi iqtidarın əldə edəcəyi bu uğura da, öz təbirlərincə, kölgə salmağa cəhdlər göstərirlər. Məsələ ondadır ki, Avropanın aparıcı dövlətlərindən olan Almaniyanın birinci siyasi adamının Azərbaycana səfərinin bütün dünyada diqqətlə izləniləcəyini bilən radikallar hələ səfər başlamamışdan Azərbaycana təzyiq göstərilməsinə çağırışlar səsləndirib, məktubla müraciətlər edib, hətta Avropada saxta yollarla "siyasi mühacir" adı almış bir qrup müxalif fəal Almaniyada aksiya da keçiriblər.

Əlbəttə, belə uğursuz aksiyalar onlara heç bir səmərə verməyib və bundan sonra da verməyəcək. Sadəcə, bütün bunların arxasında dayanan məsələlərdən biri də həmin avropalı xainlərin Azərbaycanı istəməyən qüvvələrə nökərçilik etmələri faktoru dayanmaqdadır. Daha dəqiq desək, həmin etirazçıları bir neçə kateqoriyada birləşdirmək olar:

### Kateqoriya №1. Azərbaycanın enerji layihələrinə qarşı çıxanlar

Kimsəyə sirr deyil ki, Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qiymətləndirilən Azərbaycanın reallaşdırdığı son dövrlərdəki layihələri bir sıra anti-Azərbaycan qüvvələrini narahat edir, həmin qüvvələr ölkəmizin əldə etdiyi bu kimi uğurlu proyektləri həzm edə bilmirlər. Bunun üçün isə bənzər uğursuz aksiyalara start verirlər. Daha dəqiq desək, məlum anti-TAP hərəkatında müşahidə edildiyi kimi, bu qrupun arxasında da "Cənub Qaz Dəhlizi" layihəsinin Avropanın qazla təminatında alternativ mənbə olmasını istəməyən konkret dairələr dayanır. O cümlədən, "Şimal Axını - 2" layihəsi ilə bağlı anlaşılmazlıqlar fonunda baş tutan səfərin əsas müzakirə maddəsinin Azərbaycanın və Qərb mediasının anons etdiyi kimi, digər Xəzəryanı ölkələrin karbohidrogen ehtiyatlarının Avropaya daşınması olduğundan, həmin dairələr də etiraz qrupunu fəallaşdırırlar.

### Kateqoriya № 2. "Mühacir biznesi"nin iri fiqurları

Bilərik ki, hələ iyulun 18-də Almaniyadan sığınacaq almaq istəyən 51 azərbaycanlı bu ölkədən deportasiya edilmişdi. Bu proses "Readmissiya haqqında" sazişin tələblərinə əsasən baş tutub. Lakin ortada maraqdoğurucu nüanslar da mövcuddur...

Məsələ ondadır ki, deportasiya edilənlər arasında Müsavat partiyasının üzvləri və dindarlar da olub. Əbəs deyil ki, Angela Merkel Tbilisiyə səfəri zamanı keçirdiyi mətbuat konfransında verdiyi mesajlarında da, bilavasitə miqrant mövzusunun həssaslığını göstərib. Buna qədər isə, Azərbaycan mətbuatında işıqlandırılmış çoxsaylı və dəqiq araşdırmalar isə "mühacir biznesi"ndə, məhz bu təbəqələrin fəal olduğunu fakt olaraq ortaya çıxarıb. Məhz bu baxımdan, necə deyərlər, "quyruqları qapı arasında qalan" məlum müxalifətçi dairələr də, "biznes maraqlarını" müdafiə etmək naminə etiraz etməyə məcbur qalıblar. Əlbəttə ki, belə "etirazların" heç biri Almaniya hökuməti tərəfindən ciddiyə alınmayıb və bundan sonra da alınmayacaq.

### Kateqoriya № 3. Azərbaycan əleyhinə apardıqları kampaniyalara, işlətdikləri mediaproyektlərə ayrılan qrant vəsaitləri zəifləyən və ya tam dayanmış şəxslər

Növbəti kateqoriyanı isə Azərbaycan əleyhinə apardıqları kampaniyalara, işlətdikləri mediaproyektlərə ayrılan qrant vəsaitləri zəifləyən və ya tam dayanmış şəxslərə aid edə bilərik. Onlar bağlı olduqları ölkələri müdafiə naminə Azərbaycan qarşı çıxanlardırlar. Bu baxımdan, Almaniyada keçirilən aksiyada siyasi şiəliyin qızğın tərəfdarı kimi çıxış edənlərin yer alması da təsadüfi sayıla bilməz. Görünən isə budur ki, həmin şəxslər bağlı olduqları ölkəni gözləyən sanksiyalardan diqqəti yayındırmaq üçün hərəkətə keçmək tapşırığı alıblar. Lakin bu tapşırığın da öhdəsindən gələ bilməyən qaragüruhçular sonda uğursuz nəticəyə doğru yuvarlanıblar.

### Kateqoriya № 4. Erməni lobbisi və ona bağlı olan qruplar

Sonuncu kateqoriya isə Azərbaycanın ərazi bütövlüyü müzakirələrini arxa plana keçməsində maraqlı olan erməni lobbisi və ona bağlı məlum qruplardır ki, onlar əllərinə düşən hər bir imkandan maksimum qaydada yararlanaraq, Azərbaycanın əleyhinə kampaniyalar keçirirlər. Təsadüfi deyil ki, xanım Merkelin Azərbaycana səfər ərəfəsində bu düşmən qruplar - erməni lobbisinin maddi dəstəyinə bağlı olan media və siyasiləşmiş QHT-lər şəbəkəsi Azərbaycanda "insan hüquqlarının vəziyyətini" xüsusi canfəşanlıqla müzakirə edir, diqqəti bu istiqamətə doğru yönəltməyə cəhdlər göstərirlər. Təbii ki, bu istiqamətdə də göstərilən cəhdlərin nəticəsiz qalacağını bəri başdan proqnozlaşdırmaq mümkündür.

### Uğur trayektoriyası - gerçəklikdən doğan məntiqi nəticə

Beləliklə, yuxarıda göstərilən kateqoriyalara bölünmüş anti-Azərbaycan şəbəkələr dövlətimizin apardığı uğurlu xarici diplomatiyası qarşısında aciz vəziyyətə düşdüklərinin fərqinə varmağa məhkumdurlar. Daha dəqiqi, gerçəklikdən doğan məntiqi nəticə də, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır. Artıq onlar nə qədər cəhdlər göstərsələr də Almaniya kansleri Angela Merkelin baş tutacaq Bakı səfəri Azərbaycan-Qərb münasibətlərinə yeni bir təkan və töhfə vermiş olacaq. Çünki rəsmi statistika rəqəmləri də bu cür düşünməyə zəmin yaradır. Diqqət yetirək:

Təkcə 2017-ci ildə Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ümumi ticarətində Azərbaycanın payı, təxminən, 66% olub. İki ölkə arasında ticarət dövriyyəsi 1 milyard dollara yaxındır və bu rəqəmlərin sürətlə artacağını istisna etmək olmaz. O cümlədən, Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır və Avropa İttifaqı ilə qarşılıqlı hörmət, bərabər tərəfdaşlıq və ümumi maraqlara əsaslanan münasibətlərin inkişaf etdirilməsi istiqamətində qəti siyasi iradə nümayiş etdirir. Avropanın aparıcı dövlətlərindən olan Almaniya ilə dostluq və çoxtərəfli əməkdaşlıq reallığı da bu faktoru əhatə etməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# "ADR" Hərəkatı ilə Müsavat arasında növbəti gərginliyə start verilir

***Müxalifət düşərgəsində cərəyan edən ən çox gərginliklərdən və qarşıdurmalardan biri də Müsavat partiyası ilə "Azərbaycan Demokratiya və Rifah" Hərəkatı arasındadır. Belə ki, hələ bir neçə il qabaq Müsavat partiyasının sonuncu qurultayında baş verən saxtakarlıqlardan sonra təşkilat sıralarını tərk edən müsavatçıların sonradan başqanlığa eks-namizəd Qubad İbadoğlunun yaratdığı "ADR"-ə kütləvi şəkildə üzv yazılmaları hər iki cinahı bir-birinə qarşı barışmaz düşmənə çevirdi və bu düşmənçilik hazırkı zamanda da davam edir. Digər maraqlı məqamlardan biri də budur ki, Müsavatın başabəla qurultayının nəticələrinin ləğvi tələbi ilə "ADR"-in bir qrup üzvü hələ də öz iddialarından geri çəkilməyəcəklərini bəyan edirlər. Baxmayaraq ki, artıq müsavatçıların astanasında növbəti qurultay dayanıb.***

Misal üçün, Q.İbadoğlu bu günün özündə də qeyri-legitim hesab etdiyi Müsavat rəhbərliyinin "ADR"-lə qarşıdurmasını hakimiyyətə xidmət (?) etmək kimi qiymətləndirir, hətta zamanı çatanda, tarixin onlara divan tutacağını da iddia edir. "Çox təəssüf ki, hazırkı rəhbərlikdə təmsil olunan Müsavat partiyası cəmiyyətin bütün kəsimlərinin etibarını itirdiyinə görə, bizim mübarizəmizin vizyonundan kənardadır", deyə qeyd edən "ADR" sədri vaxtı çatanda, Müsavatın yürütdüyü yanlış siyasəti üzündən parçalanaraq, məhv olacağını da istisna etmir. Əslində, İbadoğluya da bu sərf edir. Çünki istefa verib Müsavatı tərk edənlərin bir müddət sonra "ADR"-ə transfer olunacağı daha çox real görünür. Çünki adıçəkilən hərəkatın özəyi də sabiq müsavatçılardan ibarətdir. O da əbəs deyil ki, Q.İbadoğlu hələ bir neçə il öncə, Müsavat partiyasının parçalanması ilə bağlı proqnozlarını irəli sürmüşdü. O, "İnanıram ki, vaxt gələcək, onlara ən böyük divanı tarix quracaq", deyə öz fikirlərini mediaya açıqlamışdı. Əslində, hazırkı məqamda Arif Hacılının başqanı olduğu Müsavatda həmin proses getməkdədir.

Maraqlı nüanslardan biri də Müsavat başqanının sabiq müavini, hazırda "ADR" Hərəkatı sədrinin müavini, Vurğun Əyyubun da İbadoğlunun fikirlərinə dəstək verməsidir. Əslində, bu, gözlənilən idi. Çünki istər Q.İbadoğlu, istər V.Əyyub, istərsə də digərləri zamanında müsavatçılıq ideologiyası istiqamətində, necə deyərlər, canlarını qoyan adamlardırlar. Verdikləri əməklərinin bir günün içində - saxta qurultay qərarları sayəsində heçə endirilməsi isə, əlbəttə ki, onları "yandırır".

Digər "ADR" üzvü, sabiq müsavatçı Əlövsət Sadıqlı isə, daha da irəliyə gedərək, hətta zamanında "liderim" dediyi İsa Qəmbəri də oyunbazlıqda suçlayıb və bildirib ki, həm İ.Qəmbər, həm də Arif Hacılı Müsavatın tarixinə saxtakarlıq damğasını vuran satqınlardır. Onun sözlərinə görə, İ.Qəmbərlə



A.Hacılının şəxsi mənafelərini partiya və ümummilli maraqlardan üstün tutması problemin partiya daxilində həll edilməsinə imkan verməyib. Sadıqlı bir neçə il öncəki fikirlərini şərh edərkən deyib: "Düşündüm ki, bəlkə, bu adamlar ictimai qınaqdan çəkinib, etdikləri saxtakarlıqların mənfi nəticələrinin aradan qaldırılması istiqamətində təşəbbüs göstərərlər. Ancaq inanmıram ki, bu satqınlarda həya olsun. Çünki Müsavatın tarixinə saxtakarlıq damğasını vuran şəxslər öz hərəkətləri ilə demokratik prinsiplərdən uzaq olduqlarını dəfələrlə təsdiq ediblər və İsa Qəmbər, A.Hacılı və onların ətrafında olan bir qrup qaragüruhçu dəstə doğru yolu seçmək, etdiklərindən peşman olmaq, Müsavatın üzərinə yaxdıqları qara ləkəni təmizləmək əvəzinə, partiyada saxtakarlığa qarşı çıxan namuslu adamlara satqın damğası vurmaq və onları partiyadan qovmaq yolunu tutublar".

Vaxtilə İsa Qəmbərin müşaviri olmuş Səxavət Əlisoy da, təbii ki, eyni mövqeləri bölüşür. Belə ki, "ADR"-də müavin postunu tutan Əlisoya görə, Müsavat partiyası siyasi qurum deyil, sadəcə, bir dərnəkdir. O, başqan Hacılının heç bir intellektə sahib olmadığını bildirib: "Onlar heç bir zaman ortaya intellektual söhbət qoymayacaqlar. Çünki intellektlə Arif Hacılı bir-birinə tərs mütənasibdir".

Keçmiş partiya funksioneri, həmçinin, A.Hacılıya məsləhət verməyi də unutmayıb: "Ümumiyyətlə, A.Hacılı Müsavata aftoritar rejim tətbiq etmək istəyib. Müsavatdakı mövcud rejim, onsuz da gizli şəkildə orada var idi və indi daha açıq xarakter alıb. Başqan seçildiyi gündən bu günə kimi, A.Hacılının hər hansı fikirlərinin əksini deyənlər Müsavat partiyasından uzaqlaşdırılır. Çünki bu şəxs özünü keçmiş SSRİ dövründəki raykomun birinci katibi kimi aparır. Əgər araşdırma aparılarsa, görərsiniz ki, A.Hacılının ətrafında bir nəfər də olsun azad söz, fikir və plüralizmə üstünlük vermir".

Onun sözlərinə görə, bu şəxs demokratiyadan dəm vurur, amma fikir, söz azadlığına görə, özəl fikrini ortaya qoyanları partiyadan uzaqlaşdırmaq haqqında göstəriş verir: "Biz bunu hesablamışıq və bilirik. Yəqin ki, bu proses bütün müsavatçıları ayıldacaq. Görünür, artıq Müsavatda ayılma və oyanma prosesi başlayıb. İnanıram ki, yaxın günlərdə A.Hacılını anti-demokratik mövqeyinə görə Müsavatdan qovacaqlar". Göründüyü kimi, "ADR" ilə Müsavatın arasında baş verən gərginliyin daha geniş əhatə dairəsinə doğru inkişaf etdiyini deyə bilərik. Bu gərginliyin yaşanması isə, ilk növbədə, "ADR" Hərəkatına sərf edir. Hər halda, görünən amil də budur...

***Rövşən RƏSULOV***

# Ermənistan mətbuatı ölkənin düşdüyü ağır vəziyyətdən yazır

## *Ölkə ictimaiyyəti inqilabçılara və əks inqilabçılara parçalanıb*

***Ermənistanda baş verən son proseslər, bütövlükdə, bu ölkənin düşdüyü ağır və böhranlı vəziyyəti daha açıq şəkildə nümayiş etdirməkdədir. Baş nazir Nikol Paşinyanın zaman-zaman müxtəlif siyasi səhvlər kontekstindən çıxış etməsi, eləcə də, onun ətrafında olan bir sıra şəxslərin ümidlərinin doğrulmamasını etiraf etmələri, xalqın kütləvi şəkildə ölkədən çıxması, iqtisadi və sosial durumun getdikcə daha da ağırlaşması medianın gündəmində qalmaqdadır. Xüsusilə, ölkədə yeni siyasi güclərin də formalaşması, bütövlükdə, Paşinyan hakimiyyətinə qarşıda ciddi problemlər yaşatmaq ehtimallarını durmadan artırır.***





Misal üşün, "Joxovurd" qəzetinin yazdığına görə, Ermənistanda daha bir siyasi partiya yaradılacaq və həmin partiyanın adı "Sasna srer" olacaq. Partiyanı yaradanlar Serj Sarkisyan hakimiyyətinə qarşı silahlı müqavimət göstərərək, sonradan həbsə məruz qalmışdılar. Partiyanın yaradılmasına gəlincə, "Sasna srer"in fəallarından olan Jirayr Sefilyan və Varuhjan Avetisyan bildiriblər ki, təsis olunacaq siyasi təşkilat növbədənkənar parlament seçkilərində iştirak edəcək. Düzdür, onlar, hələlik, Paşinyan hökumətini dəstəklədiklərini desələr də, erməni siyasi analitikləri bunun bir blef olduğunu deyirlər. Belə ki, "Joxovurd" yazır: "Baxmayaraq ki, Jirayr Sefilyan Nikol Paşinyan hökumətini dəstəklədiyini deyir, 2016-cı ildə Yerevandakı post-patrul xidmətinin binasını ələ keçirməkdə ittiham edilən Varujan Avetisyan tamamilə başqa mənadan çıxış edərək, daha çox uzaqlara gedib çıxır".

"Əvvəlcə o deyib ki, partiya "Sasna srer" silahlı qruplaşmasının hüquqi davamçısı deyil və xalqın hakimiyyəti əldə edildiyinə görə, silahlı mübarizə səhifəsini bağlayır. Lakin digər tərəfdən, Varujan Avetisyan qeyd edib ki, "Sasna srer" ittiham olunmalı deyil və Serj Sarkisyan, hələ ki, hakimiyyətdəki mövqelərini saxlamaqdadır".

### "Sasna srer": "Silahı yerə qoymayacağıq"

Qəzet yazır ki, radikal yanaşmaları ilə tanınan və 3 polisin ölümünə səbəb olan "Sasna srer" silahlı qruplaşmasının üzvləri Paşinyan hökuməti zamanı azadlığa buraxıldıqdan sonra siyasi yol tutaraq, bu istiqamətdə mübarizə aparacaqlarını desələr də, bu, ilk baxışdan belə görünür: "Onlar siyasətə silahla gedirlər və silahlı mübarizə üsulundan imtina etmirlər. Sadəcə, bu gün bu barədə səslküylü bəyanat yaymırlar. Bundan başqa, onlar bu üsula dərhal keçməyəcəklər, məsələn, parlament seçkilərində uduzduqdan sonra yenidən silahlı müqavimətə əl atacaqlar".





Mənbələrə əsaslanan "Joxovurd", eyni zamanda, yazır ki, "Sasna srer" silahlı qruplaşmasının üzvləri azadlığa çıxdıqdan sonra öz aralarında apardıqları söhbətlərində yeni hökumətə etibar etmədiklərini kəskin şəkildə bildirirlər və Paşinyanı Serjin adamı hesab edirlər: "Bu da, elə bir halda baş verir ki, onlar, məhz Paşinyanın hakimiyyəti zamanında azadlığa buraxılıblar. Halbuki Respublika Partiyasının iqtidarda olduğu dövrdə, hətta yuxularında belə, bunu təsəvvürlərinə gətirə bilməzdilər". Bu arada, silahlı qruplaşmanın üzvləri, onu da bəyan edirlər ki, Paşinyan hökuməti rus sərhədçilərinin erməni sərhədçiləri ilə əvəzlənməsi, Rusiyaya verilmiş strateji obyektlərin milliləşdirilməsi, Rusiya telekanallarının yayımının dayandırılması, rusiyayönümlü formatdan imtina edilməsi, eləcə də, Qərb ölkələri ilə, həmçinin, İranla, Gürcüstanla, Çinlə, Hindistanla münasibətlərə yenidən baxılması məsələsini gündəmə gətirilməlidir.

Görünən isə budur ki, "Sasna srer" silahlı qruplaşması gec, ya da tez, növbəti silahlı qiyam hazırlayaraq, hakimiyyətə yiyələnmək məqsədini ortaya qoyacaq. Yəni Ermənistanı qarşıda daha ağır, acınacaqlı vəziyyət gözləyir, hətta yenidən qan tökülməsi və vətəndaş qarşıdurmasının yaranması an məsələsinə çevrilə bilər.

Digər erməni mətbu orqanı - "Past" isə yazır ki, ölkə iki hissəyə - inqilabçılara və əks inqilabçılara parçalanıb. "Bu, nə qədər kədərli görünsə də, faktdır" deyə yazan "Past" qəzeti, həmçinin, qeyd edir ki, yeni hakimiyyəti tərifləyənlər "yaxşı", tərifləməyənlər, hər hansı məmuru tənqid edənlər isə, mütləq mənada, "pis" əks inqilabçı və antidövlətçiyə çevrilirlər. Erməni qəzeti istehza ilə yazır: "Belələrini növbəti mitinq zamanı meydanda asmaq lazımdır. Çünki nəticəyə yalnız sözlərlə nail olmaq olmaz, hətta bu sözlər təhqir və təhdidlərlə bol olarsa belə. Bundan əlavə, təhdidlər də istənilən qədərdir..."

### "Rosbalt.ru" da Ermənistandakı böhranlı vəziyyətdən yazır: "Paşinyan hər kəsi qoyun buynuzuna necə bağlamağı fikirləşib"

Maraqlıdır ki, br sıra xarici agentliklər də Ermənistandakı mövcud vəziyyətlə bağlı eyni fikirləri bölüşür, Nikol Paşinyan hakimiyyətini sərt şəkildə tənqid atəşinə tuturlar. Məsələn, "rosbalt.ru" saytının məqalələr bölümündə dərc edilən "Paşinyan hər kəsi qoyun buynuzuna necə bağlamağı fikirləşib" başlıqlı məqalədə deyilir: "Hakimiyyətdə olduğu 100 günlə bağlı yeni hökumətin rəhbəri Nikol Paşinyan xalq qarşısında hesabat vermək qərarına gəldi. Fəaliyyətin coğrafi mövqeyi orijinal seçim oldu - onun tərəfindən çağırılan mitinq Respublika meydanında keçirildi. Sual yaranır - nəyə görə mitinq vasitəsi ilə? Görünür, ona görə ki, onu hakimiyyətə, məhz mitinq fəallığı gətirdi və açıq məkan onun üçün daha "orqanikdir", nəinki məhdudiyyətlidir. Bundan əlavə, hesabatın formatı seçicilərlə dialoq məsələsini ehtimal vermişdir və bu, çox rahatdır: narahatedici suallara cavab verməyə ehtiyac yoxdur. Lakin inqilab eyforiyası aradan çıxdıqdan sonra erməni ictimaiyyətində bu suallar yaranmağa başlayıb".

### "Vestnik Kavkaza": "Paşinyan hakimiyyəti dövründə Ermənistanda cinayətkarlıq 12,3 faiz artıb"

"Vestnik Kavkaza" isə "nevws.am"-a istinadən yazır ki, Paşinyanın hakimiyyəti dövründə - 10 maydan 20 avqusta qədərki zaman kəsimində Ermənistanda cinayət faktları 12,3 faiz artıb. Bu barədə Ermənistan polisinin qərargah rəisi Armen Qukasyan hesabatını təqdim edərkən bildirib. Sözügedən yazıda erməni polis rəisi 100 günün elə də böyük müddət olmadığını bildirir və bu vasitə ilə Paşinyan hakimiyyətinin cinayətkarlıqla mübarizə məsələsində də uğursuzluğa düçar olduğunu gizlətməyə çalışır.

Beləliklə, görünən budur ki, yalnız erməni mediası deyil, eləcə də, xarici mətbuat da Nikol Paşinyanın ölkədəki "məxməri inqilab" eyforiyasından sonra bir sıra sahələrdə yaritmazlığını ortaya qoyur və onun ifşasını reallaşdırır. Bütün bunlar isə, bir istiqamətə - Ermənistanın məhvinə doğru aparan gerçəkliklərdir.

***Rövşən NURƏDDİNOĞLU***



# Əli Kərimlinin ətrafındakı halqa daralır

## *Qurban Məmmədov "Yurd" şefini ifşa edən yeni faktlar açıqlayıb*



***Dağınıq və pərakəndə halda olan müxalifətin son hadisələrdən sonra vəziyyətinin daha da ağırlaşdığı müşahidə olunur. Yəni düşərgə daxilində baş verən, ikitirəlik və qarşıdurmalar yaxın günlərdə bəzi partiyaların sıradan çıxacağı ehtimalını möhkəmləndirməkdədir. Bu, azmış kimi, xarici maraqlı dairələrin onlardan imtina edən mesajlar səsləndirmələri müxalifətin onsuz da ağır olan durumunun daha kritik hal almasına təkan olub. Bu isə, müxalifət üçün siyasi intihara bərabərdir. Bundan sonra fəaliyyət göstərmək və mitinqlər keçirmək ciddi problemə çevriləcək. Proseslərə əsasən, demək olar ki, artıq xarici təşkilatlarla müxalif partiyalar arasında yaranan soyuqluğun mənfi nəticələri özünü göstərməkdədir.***

Müsavat və AXCP-nin aparatında çalışanlar 3 aydır ki, aylıq maaşlarını almırlar, bu azmış kimi, mitinqlərin təşkili və keçirilməsi də mümkünsüz olub. Vaxtilə Ə.Kərimli ilə eyni maraqları bölüşmüş Emil Milli də düşərgə təmsilçilərini qorxaqlıqda və mitinqlər keçirə bilməməkdə günahlandırıb. O, açıqlamalarında Ə.Kərimlini qorxaq adlandırıb: "İcazəsiz aksiyalara Əli Kərimli çağırış edir, amma özü gəlmir. Çünki orada insanlar həbs oluna bilər. Necə ola bilər ki, partiyanın lideri olasan, insanlara çağırış edəsən, amma özün meydanlara gəlməyəsən? Bu, necə ola bilər axı? Özü gəlməlidir. Əli Kərimli icazəsiz aksiya keçirməyə qorxur ki, birdən şalvarını əynindən çıxararlar, şapalaq vurarlar, başına iş gətirə bilərlər".

Satılmağı həyat tərzinə çevirən Ə.Kərimli, A.Hacılı, İ.Qəmbər və digərləri üzləşdikləri acınacaqlı vəziyyətdən çıxmaq üçün üzüdönüklük edən xarici ağaları ilə münasibətlərini yenidən bərpa etməyə cəhdlər göstərirlər. Hətta vasitəçiləri də işə salıblar. Ola bilsin ki, istəklərinə çatacaqlar. Çünki Avropada elə qaranlıq və məkrli dairələr var ki, onlar Azərbaycana qarşı öz pozucu niyyətlərini həyata keçirmək üçün məqam axtarırlar. Cəmil Həsənli, Əli Kərimli və Arif Hacılı kimi öz ölkələrinə düşmən kəsilən şəxsləri aşkar edən kimi, onlarla əlaqə quracaq və müəyyən sövdələşmələr əsasında pul ayıracaqlar. Təbii ki, həmin maraqlı dairələr müxalif ünsürlərin öz dövlətlərinə xəyanət etdiklərinin, alınan pulları şəxsi maraqlarına xərclədiklərini bilirlər. Bu, onları narahat da etmir. Əsas odur ki, öz təxribatçı maraqlarının təmin edilməsində əlaltıları fəallıq göstərsinlər və ortaya ciddi iş qoysunlar. Ancaq bu, reallıqdır ki, nə təxribatçı dairələrin, nə də onların ölkəmizdə qulbeçəsinə çevrilən əlaltılarının planları reallaşa bilməz. Çünki Ə.Kərimli, A.Hacılı və digərləri, artıq tamamilə əhəmiyyətsiz şəxslərə çevriliblər. Artıq onları yaxın çevrələri də, kəskin surətdə ittiham edirlər. Onlardan biri də, qondarma hüquqşünas Qurban Məmmədovdur. Bir zaman Ə.Kərimli ilə eyni qabdan qidalanan Q.Məmmədov bu dəfə mövqeyini 180 dərəcə dəyişməli olub. Q.Məmmədov Ə.Kərimlini müstəqil mövqeyi olmayan və müəyyən dairələrə bağlı partiya sədri adlandırıb. Onu da bildirib ki, Ə.Kərimli müxalifət üçün qayda yaradır: "Müxalifətin birləşməsi və qismən də olsa, güc mərkəzinə çevrilməsi, Ə.Kərimlinin siyasətdən getməsi hesabına ola bilər. Ə.Kərimli qədər müxalifətə ən böyük zərbəni vuran ikinci şəxs olmayıb".

### "Gələcək Azərbaycan Partiyası" ilə AXCP arasındakı münasibətlər daha da gərginləşib

Politoloq Məmməd Əlizadənin fikrincə, Q.Məmmədovun keçmiş həmfikirini təhqir etməsi təəccüblü görünməməlidir: "Bir vaxtlar "Yurd" sədri Əli Kərimlinin alovlu müdafiəçisi olan hüquqşünas Qurban Məmmədov indi Avropada Nahid Cəfərov adında müxalif virtual bloggerin tərəfinə keçib. Nahid Cəfərovun Qurban Məmmədovla maliyyə sövdələşməsi əsas amildir. Vəkil kimi Qurban bəy pula işləyir".



O, bildirib ki, N.Cəfərov Q.Məmmədovu öz tərəfinə çəkməklə Əli Kərimli üzərində qələbəsini bayram edir: "Əlinin adamları başda guya "Ziyalılar Birliyi"nin sədri Eldəniz Quliyevi Qurban Məmmədovun üstünə qaldırıblar".

Vəziyyətin arzuolunmaz məcrada davam etdiyi məqamda "GAP" lideri R.Quliyev Bakıdakı muzdlu işçi kontingentinə müəyyən tapşırıqlar verib. Belə ki, barmaqla sayılacaq qədər üzvü olan "Gələcək Azərbaycan Partiyası" öz fəaliyyətsizliyini ört-basdır etmək və özünü cəmiyyətə "əsl müxalifət" partiyası kimi sırımaq üçün Ə.Kərimlini və partiyasını sıradan çıxarmağı tapşırıb. Məqsədə nail olmaq üçün Şakir Ağasıoğlunun rəhbərliyi ilə "GAP" təmsilçiləri sosial şəbəkələr vasitəsi ilə anti-təbliğat kampaniyası aparırlar. Bu baxımdan, "Gələcək Azərbaycan Partiyası" ilə AXCP arasındakı münasibətlər daha da gərginləşib. Hətta vəziyyət o həddə çatıb ki, artıq hər iki partiyanın rəhbərliyinin tapşırıqları ilə partiya üzvləri təkcə sosial şəbəkələrdə bir-birilərini təhqir etmir, həm də bir-birinin ünvanlarına təhqiredici məktublar göndərirlər. Tərəflərarası qarşıdurma yenicə qızışıb. Yəqin ki, hələ qabaqda AXCP ilə "GAP" arasında yeni qalmaqallar və ittihamlar baş verəcək. Bu qarşıdurmada kimin önə çıxacağını demək çətin olsa da, real olan fakt odur ki, onların "biri beşinə, beşi də birinə dəyməz".

***İ.ƏLİYEV***

# Müxalifətdə İlqar Məmmədov problemi...

## *Çünki dağıdıcı müxalifət üçün İlqar Məmmədovun həbsdə olması daha əlverişlidir*

Son günlər "REAL" partiyasının sədri İlqar Məmmədovun 5 il 6 aydan sonra bu ilin avqust ayının 13-də azadlığa buraxılması dağıdıcı müxalifət tərəfindən birmənalı qarşılanmayıb və onun bundan sonrakı fəaliyyətini qəbul etmədiklərini bildirirlər. Təəccüblü də deyil. Çünki 25 ildir özlərini dağıdıcı müxalifət elan edən Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər və digərləri bir-birlərinə qarşı daima amansız mübarizə aparmaqla yanaşı, heç vaxt bir-birlərini qəbul etməyib, əksinə, nifrət ediblər. Belə olan halda, onlar İlqar Məmmədova nə dərəcədə önəm verə bilərlər? Nə dərəcədə onu özlərindən öndə, yaxud öz yanlarında görə bilərlər?

Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, millət vəkili Aydın Mirzəzadə İ.Məmmədovla bağlı bildirib ki, "REAL" partiyasının sədrinin azadlığa buraxılması yüzlərlə, minlərlə məhkumlardan biridir və Azərbaycan üçün ayrıca bir İlqar Məmmədov məsələsi yoxdur: "Azərbaycan üçün ayrıca bir İlqar Məmmədov məsələsi yoxdur. Vaxtaşırı məhkəmələrimizdə bu və ya digər məhkumun işinə baxılır. Nəticədə, məhkumun cəzası azaldılır, azadlığa buraxılır ya da başqa qərarlar qəbul edilir. Bu gün Azərbaycan dövləti siyasi əqidəsindən və törətdiyi əməldən asılı olmayaraq, bütün vətəndaşlarına eyni münasibət göstərir. Onların hüquqlarının qorunmasına, məhkumdursa, onların tezliklə ailələrinə qayıtmalarında və cəmiyyətə sosial inteqrasiya olunmasında maraqlıdır. Göründüyü kimi, İ.Məmmədovun hüquqlarının qorunmasına, ilk növbədə, Azərbaycan dövləti özü səy göstərib. O, azadlığa çıxdıqdan sonra ayrı-ayrı dövlətlərin reaksiya verməsinə biz normal baxırıq. Azərbaycan açıq cəmiyyətdir. Bu baxımdan, cəmiyyətimizdə gedən proseslərə hansısa ölkənin münasibət bildirməsi normal bir haldır".

A.Mirzəzadə dağıdıcı müxalifətin fikirlərinə münasibət bildirərək vurğulayıb ki, Azərbaycanda müxalifətin, onun konstruktiv və yaxud dağıdıcı olmasından asılı olmayaraq, sosial bazası zəifdir: "Siyasətin bir qızıl qanunu var. Əgər iqtidar işləyirsə, bu zaman müxalifətin sosial bazası zəif olur. Aydın məsələdir ki, ayrı-ayrı ənənəvi müxalifət liderləri öz zonasında yeni bir iddiaçının olmasında maraqlı deyil. Çünki bu iddiaçı güclü iqtidardan deyil, məhz müxalifətin sosial bazasından öz tərəfdarlarını qoparacaq. Buna görə də, İ.Məmmədovun həbsdən şərti cəza ilə azadlığa buraxılması müxalifət liderlərini narahat edir. Buna görə də, müxtəlif versiyalar irəli sürürlər. Onun azadlığa çıxma məsələsinə kölgə salmağa və qısqanclıqla qarşılamağa çalışırlar. Bir də İ.Məmmədov dövlət hakimiyyətinin bir qolu olan məhkəmə tərəfindən azad edilib. Bu gün müxalifətin müəyyən qanadları İ.Məmmədov faktorunu sıradan çıxarmağa çalışırlar. Onu öz təsiri altına almağa, yaxud onun yenidən səhv addımlar atmasına səy göstərirlər. Bu gün dağıdıcı müxalifət üçün İlqar Məmmədovun həbsdə olması daha əlverişlidir. Çünki, belə olduğu halda, onların sosial bazasına göz dikəcək bir rəqiblərini sıradan çıxarmış olurlar". Ancaq bu gün proseslər hansısa radikal müxalifət liderinin istəyi ilə deyil, qanun çərçivəsində gedir. Ümumilikdə, vətəndaşlarımızın bütün hüquqlarının qorunması Azərbaycan dövlətinin bir nömrəli vəzifəsidir.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini Niyaməddin Orduxanlı sözügedən məsələ ilə bağlı bildirib ki, Əli Kərimlinin "trolları" onun tapşırığı ilə bütün gün sosial şəbəkədə İlqar Məmmədovu təhqir edirlər: "Buna görə də, gözləmirdim ki, onlar bundan sonra da bir-birlərinə qarşı xoş münasibətdə olsunlar. Çünki onlar da bilirlər ki, heç vaxt Azərbaycan cəmiyyətinin dəstəyini qazana bilməyəcəklər. Onlar hakimiyyətə gəlsələr, ölkədə xaos olacaq, ölkə vətəndaş müharibəsinə sürüklənəcək".



ADP sədri Sərdar Cəlaloğlu isə "REAL" sədrinin cəmiyyətə "müxalifət lideri" kimi təqdim edilməsini qəbul etmədiyini bildirib. Vurğulayıb ki, İ.Məmmədov Azərbaycan siyasətində tutulmazdan əvvəl də, o qədər də parlaq liderlik ortaya qoymayıb: "O, uzun müddət Etibar Məmmədovun katiblərindən biri olub. O qədər də tanınmış katib olmayıb. Siyasətdən uzaqlaşıb, Amerika səfirliyinə işə gedəndən sonra yenidən deputatlığa namizəd kimi siyasətə qayıdıb. Səfirliyin yardımı ilə Amerikada təhsil alan tələbələrdən ibarət "REAL" təşkilatını yaradıb. Bu baxımdan, İ.Məmmədovun təşkilatçı olması və lider olması ilə bağlı fikirlər mifdən başqa bir şey deyil".

S.Cəlaloğlu onu da qeyd edib ki, hər hansı adamın həbsxanadan çıxdıqdan sonra nəyisə düzəldəcək sözü düzgün deyil: "Məsələn, Əli İnsanov haqqında da belə fikirlər deyilirdi ki, o, çıxsa, Azərbaycanı düzəldəcək. Bütün bunların hamısı həbsdə olan insanlara müxalifətin diqqəti cəlb etmək üçün atılan addımlardır. Belə çıxır ki, İlqar Məmmədovla bağlı yayılan fikirlər də onun həbsinə diqqəti artırmaq, bunun daha çox siyasi xarakterli olduğunu dünyaya bildirməkdir. Bu adam guya müxalifətin lideridir və ona görə həbsxanada saxlanılır. Bu, tamamilə yanlış fikirdir. İlqar Məmmədovun, ümumiyyətlə, bizim başa düşdüyümüz kimi liderlik etməyə nə əqli potensialı var, nə də onun xarakteri imkanı var ki, belə bir liderlik etsin".

***Rəfiqə HÜSEYNOVA***

## Ucarda minik avtomobili aşıb



Ucar rayonunun Küçəkənd kəndində "Hyundai" markalı minik avtomobili yolda idarəetməni itirərək aşıb.Trend-in Fövqəladə Hallar Nazirliyinin saytına istinadən məlumatına görə, hadisə yerinə cəlb olunmuş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq xilasetmə qüvvələri avtomobildə sıxılmış vəziyyətdə qalmış 1 nəfəri deformasiyaya uğramış nəqliyyat vasitəsindən çıxarıb və aidiyyəti üzrə təhvil veriblər. Əməliyyat başa çatıb.

# Qadın hüquqları insan hüquq və azadlıqlarının tərkib hissəsi kimi

***İnsan hüquq və azadlıqlarına xüsusi önəm verildiyi müstəqillik illərində Azərbaycan qadınının hüquqları, sözün əsl mənasında, əhəmiyyətli dərəcədə artmış, ailədə və cəmiyyətdə qadınların rolu genişləndirilmişdir. Bu gün çox hörmətli, nüfuzlu ailələr və nəsillər hər birimizin qürur yerinə çevrilmişdir. Hüquq elmləri doktoru Zahid Bəhramov və S.Həsənzadə yazırlar: "Çox təəssüf ki, mənfi hallar da az deyildir.***

Vaxtilə milli-mənəvi dəyərlərimizə uyğun olaraq öz həyat yoldaşına özündən yüksək "təbəqə" kimi baxan, ona müticəsinə tabeçilik göstərən, ailə münasibətlərində ərin şərtsiz üstünlüyünü qəbul edən Azərbaycan qadını, son illər cəmiyyətdə gedən qlobal proseslər kontekstində ciddi dəyişikliklərə məruz qalmış, cəmiyyətdə və ailədə, bir tərəfdən, onun fəallığı son dərəcə artmış, digər tərəfdən, ailə münasibətlərində, az da olsa, tənəzzül prosesləri sürətlənmişdir. İndi qadın, nəinki öz həyat yoldaşından bərabərlik, habelə üstünlük istəyir. Cəmiyyətdən daha geniş hüquqlar, vəzifələr, mövqelər və siyasi hakimiyyət tələb edir. Təəssüf ki, bəzi qadınların daha çox azadlığı, daha çox sərbəstliyi onların istədiyini etməyə hesablanır. "Açıq cəmiyyət" ənənələrinə sürətlə uyğunlaşmaq istəyən qadın özünə, sərbəst olaraq, həyat tərzi seçir, xaricə sərbəst gedir, özünə müsbət imic formalaşdırmağa çalışır. Bununla yanaşı, təəssüf ki, o, həm də milli adət-ənənələrimizə uyğun olmayan həyat tərzinə tədricən öyrəşir, sevgisində daha "müstəqil" olmağa çalışır. Onun bu istəyinə ərli olması o qədər də mane olmur. Öz ərindən daha çox qayğı, məhəbbət görmədiyi halda, başqa bir kişidən daha çox qayğı, məhəbbət, diqqət, sevgi görməsi onu daha çox həvəsləndirir və şirnikləndirir. Çünki onun əri, başqa bir qadına daha çox qayğı, məhəbbət, diqqət göstərdiyindən öz həyat yoldaşına, artıq vaxt və necə deyərlər, növbə çatmır. O da əri kimi, əks-cinsə münasibətində istədiyini etməyə çalışır. Bu gün çoxarvadlılıq və çoxsevgililik, adi hal aldığı kimi, çoxərlilik və ya çoxməşuqluluq tendensiyası da, təəssüf ki, adi həyat tərzinə çevrilməkdədir. Başqa sözlə, kişi bir qadınla kifayətlənmədiyi kimi, qadın da öz əri ilə özünü o qədər də xoşbəxt hesab etmir. Başqa qadınlarla nikahsız münasibətləri, nikahdan kənar gizli əlaqələrinin bir gün üstü açıldıqda isə, qətllər baş verir. Ən yaxşı halda isə, boşanan tərəflərin nəticə etibarilə ailələri dağılır, talelər çox vaxt pozulur.

Mövcud qanunvericilik və hüquq-mühafizə sistemi bu münasibətləri ədalətli tənzim etməyə yetərli deyil. Eyni zamanda, təəssüf hissi ilə, qeyd edilməlidir ki, cəmiyyətimizdə bütün bu proseslərin diqqətlə, elmi cəhətdən öyrənilməsi, bu münasibətlərin nizama salınması, düzgün məcraya yönəldilməsi istiqamətində işlər o qədər də səmərəli və ettektli aparılmır. Ailələrin dağılmasının səbəbi fəlakət baş verdikdən sonra öyrənilməyə başlayır ki, bu zaman da, artıq hər şey gec olur və bir nəticə vermir".

Bütün bu təhlillər göstərir ki, Azərbaycan Respublikasında 22 iyun 2010-cu il tarixdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, beynəlxalq öhdəliklərdən qaynaqlansa da, lakin ailədaxili zorakılığın qarşısının alınması istiqamətində səylərin birləşdirilməsinə zərurət yaradacaqdır. Bu gün ölkədə aparılan düzgün siyasət problemlərin həll edilməsində və qanun pozuntularının qarşısının alınmasında ailənin, o cümlədən, ananın rolunun artmasına böyük tələbat yaradır. Bu isə cəmiyyətdə bütün qüvvələrin bu istiqamətdə səfərbər edilməsinə və ailənin rolunun artmasının olduqca əhəmiyyətli olduğunu təsdiq edir.

Məişət zəminində qadın cinayətkarlığının artması cəmiyyətdə və sosial mühitdə qadının rolunun və hüququnun genişləndirilməsi, mühüm sosial tənzimetmə institutu kimi adət və ənənələrin ciddi dəyişikliyə uğraması, işsizlik və yoxsulluğun artması, mənəvi-əxlaqi dəyərlərin tənəzzülü, psixoloji sarsıntılar, kütləvi informasiya vasitələrində yabançı meyillərin təbliği, kişi nüfuzunun get-gedə aşağı düşməsi nəticəsində ənənəvi ailə başçısı rolunun azalması, ağsaqqallıq institutunun şəhər mühitində işləməməsi, ailə münaqişələrinin maddi çətinliklər və yoxsulluq üzündən artması, hüquq-mühafizə sistemində profilaktiki tədbirlərin tədricən zəifləməsi və digər çoxsaylı səbəblər bu kateqoriyadan olan kriminal əməllərin artmasına şərait yaradır. Buna görə də, məişət zorakılığına qarşı mübarizədə ailənin və cəmiyyətdə qadının rolunun artırılması olduqca zəruridir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Yeni Qanunu bu sahədə problemin hüquqi tənzimlənməsi, xüsusilə, belə zorakılıqların qarşısının alınması sahəsində ən mükəmməl normativ-hüquqi aktlardan biridir. Hər şeydən əvvəl, qanun ilk dəfə olaraq, "məişət zorakılığı"na, onun ayrı-ayrı növlərinə aydınlıq gətirmişdir. Göstərmişdir ki, məişət zorakılığı dedikdə, yaxın qohumluq münasibətlərindən birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bir şəxsin digər şəxsə qarşı qəsdən fiziki və mənəvi zərər vurması başa düşülür. Bu zorakılığın fiziki, psixi, cinsi, iqtisadi və s. formaları fərqləndirilir. Qanun məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsipləri müəyyən edərkən, bu zaman insan hüquq və azadlıqlarının təmin edilməsinə, qadınlara qarşı ayrı-seçkiliyin qadağan olunmasına, şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyinə, konfidensiallığa riayət edilməsinə, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpasına, bu sahədə dövlət və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığına xüsusi önəm verir. Ən müsbət cəhətlərdən biri də ondan ibarətdir ki, qanunvericilik yolu ilə məişət zorakılığının qarşısının alınması sahəsində kompleks tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlərin növləri, o cümlədən, hüquqi-sosial, qabaqlayıcı və digər tədbirlər sistemi müəyyən edilmiş və təşkilati-hüquqi formalar müəyyənləşdirilmişdir.

Məişət zorakılığı barədə ərizə və müraciətlərin baxılması və həll edilməsi qaydası nəzərdə tutulan yeni meyarları dövlət orqanlarının əsas vəzifələrini, konkret olaraq, müəyyənləşdirmişdir. Bu zaman cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş tədbirlərlə yanaşı, bu məzmunlu şikayətlər üzrə araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin görməli olduğu vəzifələrin sistemi konkretləşdirilmişdir. Qanunun icrası ilə bağlı ölkə Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə kompleks tədbirlər nəzərdə tutulmuşdur. Bu sahədə məlumat bankının, yardım mərkəzlərinin yaradılması, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər, heç şübhəsiz, öz faydalı nəticələrini verəcəkdir.

Z.Bəhramov və S.Həsənzadənin fikrincə, məişət zorakılığı sahəsində profilaktiki tədbirlərin gücləndirilməsi cəmiyyətdə ailənin və qadının nüfuzunun yüksəldilməsinə mühüm təsir göstərəcəkdir. Cəmiyyətin əsas özəyi olan ailə özündə qadın və uşaqla yanaşı, həm də kişiləri birləşdirməklə, əslində, bütün cəmiyyəti əhatə edir. Ailədaxili münaqişələr yetkinlik yaşına çatmayanların tərbiyəsini pozur, onların gələcək taleyini şübhə altında qoyur. Belə münaqişələr ailəni pozur, sərxoşluğa, narkomanlığa, tamah və zorakı cinayətlərin artmasına münbit şərait yaradır, əmək məhsuldarlığına mənfi təsir göstərir, cəmiyyətdə stabillik və sakitliyi pozur. Psixoloji sarsıntılar, əsəb gərginliyi, intihar və qətllər yaradır. Ailəsi xoşbəxt olmayan cəmiyyətin mahiyyət etibarilə özünün xoşbəxtliyi mümkün deyildir. Buna görə də, son illər ailə münaqişələrinə qarşı mümkün olan bütün profilaktiki tədbirlərin görülməsinə diqqət artmaqdadır. Bu gün ailə və qadın problemləri ciddi surətdə, vaxtaşırı olaraq, sistemli şəkildə öyrənilməli və onların düzgün istiqamətə yönəldilməsi üçün qətiyyətli tədbirlər görülməlidir. Bu problemə qadının, ailənin, uşağın problemləri kimi yox, cəmiyyətin və Azərbaycan dövlətinin problemləri kimi baxmaq zəruridir.

BMT-nin "Qadınlar haqqında ayrı-seçkiliyin bütün formalarının ləğv olunması barədə Konvensiyası"nda qadının ailə rifahında rolunu qeyd edərək, onu diqqətə çəkir ki, indiyədək ailədə və uşaqların tərbiyə olunmasında analığın və hər iki valideynin sosial rolu tam tanınmamışdır, çünki bu, kişi və qadının, eləcə də, bütövlükdə, cəmiyyətin birgə məsuliyyətini tələb edir. Kişi və qadın arasında tam bərabərliyə nail olmaq üçün gərəkdir ki, həm kişinin, həm də qadının ailədə və cəmiyyətdəki ənənəvi rolu dəyişdirilsin.

Azərbaycan Respublikasının Konstitusiyasında deyilir ki, "analıq və uşaqlıq və ailə dövlətin himayəsi altındadır", "uşaqlara qayğı, onların tərbiyəsi - valideynlərin bərabər hüquq və vəzifəsidir". Tərbiyə isə mənəviyyatın formalaşmasının bünövrəsidir. Lakin bütün zamanlarda və bütün xalqlarda uşaqların tərbiyəsi qadının əsas qayğısı olmuş, kişilərin isə bu işdə rolu yalnız qorxutmaq olmuşdur ("Bax ha, atana deyərəm!").

Qadının qarşısında hər vəchlə nikahı yaşatmaq və yaranmış şəraitdə ailəni qoruyub-saxlamaq problemi durur. Bu gün bu problemlər cərgəsində "nəsil artırmaqla" yanaşı, daha bir çətin problem - ailə büdcəsini artırmaq və ailə gəlirini bölüşdürmək problemi qatılmışdır. Eyni zamanda, mənəviyyat və bütövlükdə, milli dəyərlərin də qorunmasına qadın məsuldur. Fəlsəfə elmləri doktoru Rəna Mirzəzadə göstərir ki, bugünkü qlobal şəraitdə qadın sağlamlığına zərər vurmadan ailə qayğılarının öhdəsindən gəlsin deyə, nəinki özü, ilk növbədə, cəmiyyət və dövlət böyük səylər göstərməlidirlər.

Bu cəmiyyətdə patriarx baxışlar, ər-arvad, valideyn-uşaq arasında gərgin münasibətlər qalmaqdadır. Cəmiyyət, belə desək, formalaşmış ənənə, dəyərlər uşaqlarda anaya, ananın professional fəaliyyətinə yardımçı olma hissini aşılamağa kömək göstərmir, bunlar isə qadınlar üçün əlavə çətinliklər yaradır. Müasir ailə qarşısında əsas ağırlığı qadının üzərinə düşən mənəvi tərbiyə problemi durur. Günahkar ana-qadın sayılır, ata isə sanki mənəvi tərbiyədə "azaddır" və müstəqilliyə malikdir. Ailənin və ailədə qadının nüfuzunun qorunub-saxlanması üçün BMT ailə münasibətlərinin yeni modelini təklif edir. Konvensiyanın 5-ci maddəsinə görə, "iştirakçı-dövlətlər kişilərin və qadınların sosial və mədəni davranışı modelini dəyişdirmək, cinslərdən birinin üstünlüyü, kişi və qadın rolunun stereotiplərinə əsaslanan xürafat və ənənələrə son qoymaq üçün müvafiq tədbirlər görməlidirlər" kimi göstərilir.

Azərbaycan Konvensiyanın icrasını öhdəlik kimi üzərinə götürüb. Ölkədə qadınlara, ailə və uşaqlara, gender problemlərinə dair bir sıra qanunlar qəbul olunub. Uşaqların şəxsiyyət kimi formalaşmasında, onların tərbiyə olunmasında, hüquqlarının qorunmasında, ailədə maraqların üstün tutulmasında, qadın haqqında mövcud dəyər və ənənələrin dəyişdirilməsində yeni model valideynlərin bərabər hüquq və vəzifələrini nəzərdə tutur. Qadının ailədə yeri, rolu təbiət və cəmiyyət tərəfindən təyin olunmuş funksiyaları onun ailə qayğılarının dairəsini, təşkil edirsə, bu hallar içində mənəvi, milli dəyərlərin aşınmadan qorunması onun vəzifəsi hesab edilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 25 avqust


## Dünyanın ən bahalı şəhərləri: Paris, Təl-Əviv, Nyu-York...

Türkiyə Otelçilər Birliyi "STR Global" araşdırma və təhlil şirkətinin yay aylarında bütün növ otel nömrələrinin qiymətlərinə dair məlumatları əsasında dünyanın ən bahalı şəhərlərinin reytinqini müəyyənləşdirib.



AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, ən bahalı şəhərlərin reytinq cədvəlində ilk 20 yerdə qərarlaşan şəhərlərin çoxu Avropa ölkələrindədir. Bu göstəriciyə görə, ilk üç yeri müvafiq olaraq Paris, Təl-Əviv və Nyu-York şəhərləri tutur. Fransa paytaxtı günlük orta hesabla 263 avroya çatan otel qiymətləri ilə dünyanın bahalı şəhəri statusunu qazanıb. Otel otaqlarının orta qiyməti 239 avro olan Təl-Əviv siyahıda ikincidir. Üçüncü pillədə yer alan Nyu-York şəhərində isə qiymətlər 236 avro təşkil edir. Reytinqdə İsveçrənin ən böyük şəhəri Sürix 216 avro ilə dördüncü, Cenevrə isə 215 avro ilə beşinci sırada qərarlaşır. İlk onluğa, həmçinin Roma (182 avro), London (181 avro), Kopenhagen (179 avro), Amsterdam (178 avro) və Dublin (168 avro) şəhərləri daxildir.

## Yaponiyada günvurma barədə xəbərdarlıq edən köynək hazırlanıb




Yaponiyanın idman malları istehsalı sahəsində tanınmış "ASICS Corporation" və telekommunikasiyalar sahəsinin nəhənglərindən biri olan NTT şirkəti sahibini günvurmadan qoruyan köynəyi ictimaiyyətə təqdim ediblər. AZƏRTAC xəbər verir ki, xəbərdaredici sensorla təchiz edilən köynək avqustun 23-də nümayiş olunub. Köynəyin arxa hissəsində yerləşdirilən sensor sahibinin ürək döyüntülərini, köynəyin altındakı hərarəti və nəmişliyi, həmçinin günəşin istiliyini izləyir. Sensor əldə edilən məlumatları köynəyin sahibinə ötürməklə ona öz fiziki vəziyyətinə nəzarət etmək imkanı yaradır. Günvurma təhlükəsi yarandığı təqdirdə qurğu köynək sahibinə xəbərdarlıq edir.

## Ananın iş yeri övladının sağlamlığına təsir edir?

Alimlər müəyyən ediblər ki, qadının işi onun hələ doğulmamış körpəsinə birbaşa təsir göstərməyə qadirdir. Medicina.az xəbər verir ki, buna qədər artıq sübut edilmişdi ki, bəzi kimyəvi birləşmələr körpədə astma xəstəliyinin inkişafı riskini artırır. Lakin iş yeri ilə sağlamlıq arasındakı analoji əlaqəni yalnız indi aydınlaşdırmaq mümkün olub. Kəşf Danimarkadakı İctimai Sağlamlıq Məktəbinin əməkdaşlarına məxsusdur. Onların elmi işlərinin əsasını 43 minə yaxın yeddi yaşlı uşağın sağlamlıq vəziyyəti təşkil edir. Məlum olub ki, mebel, ayaqqabı, rəng və avtomobil hissələri ilə işləyən qadınlar daha tez-tez astma xəstəliyinə düçar olmuş uşaqlar dünyaya gətirirlər. Bu diaqnoz müayinə olunan uşaqların təxminən 16 faizində qeydə alınıb.

Araşdırmanın rəhbəri Berit Xvass Kristensenin sözlərinə görə, bu araşdırma uşaqların vəziyyəti və anaların işinin irimiqyaslı təhlili istiqamətində ilk addımdır. Qarşıda astmanın arxasında məhz hansı substansiyanın dayandığını aydınlaşdırmaq durur. "Bir şeyi dəqiq söyləmək mümkündür: təmiz hava sağlamlığın rəhnidir", - alim qeyd edib.


**ELAN**

"CHARDELL" MMC (vöen 140 4149511)-yə məxsus "Reysterdən çıxarış" və "Nizamnamə" itdiyi üçün etibarsız sayılır.


## Boksçularımız beynəlxalq yarışda 1 qızıl və 2 bürünc medal qazanıblar




Rusiya Federasiyası Çeçenistan Respublikasının paytaxtı Qroznıda kişi boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb. AZƏRTAC xəbər verir ki, Çeçenistan Respublikasının sabiq prezidenti Əhməd Kadırovun xatirəsinə həsr olunan sayca 10-cu yarışda Azərbaycan millisi 1 qızıl və 2 bürünc medal qazanıb.

Komandamızın heyətində Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələnib. O, finalda hindistanlı Kumar Satişi 3:2 hesabı ilə məğlub edib. Digər boksçularımızdan Araz İmaməliyev (52 kq) və Cəbrayıl Yelikov (81 kq) üçüncü yeri tutublar. Yığmamız komanda hesabında dördüncü yerdə qərarlaşıb. İlk pilləyə beş qızıl, altı gümüş və yeddi bürünc medal qazanan Rusiya sahib olub. Qeyd edək ki, turnirdə 17 ölkədən 105 boksçu qüvvəsini sınayıb.



## Əlil arabasında əyləşən Şumaxer dağlara baxıb ağlayır...

"Formula-1" yarışlarının almaniyalı əfsanəvi pilotu Mixael Şumaxer 2013-cü ildə başından aldığı ağır zədədən sonra müalicəsini davam etdirir. Britaniyada çıxan "The Mirror" qəzetində Şumaxerin səhhəti ilə bağlı xəbərlər dərc edilib. Yeddiqat dünya çempionunun qohumlarından birinin sözlərinə görə, Şumaxer emosiyalarını nümayiş etdirməklə bütün ailəni sevindirir. "Kral yürüşləri"nin 49 yaşlı sabiq pilotunun ailəsi hazırda İsveçrənin Qland şəhərində, Cenevrə gölünə yaxın ərazidəki villada yaşayır. Qəzet anonim mənbənin bu sözlərini sitat gətirir: "Biz onu əlil arabasına əyləşdirib dağlara və gölə açılan gözəl panoramı göstərəndə Mixael bəzən ağlayır".

Şumaxerin keçmiş meneceri, vaxtilə gənc Mixaelin istedadına diqqət yetirərək onun yeddi dəfə çempion titulu qazanmasında mühüm rol oynamış Villa Venera bu yaxınlarda etiraf edib ki, artıq dostunun səhhətinin bərpa olunacağına ümid bəsləmir. Veber "Bunte" jurnalına müsahibəsində deyib: "Mən uzun sürən matəmdən sonra Mixaeldən əlimi üzmüşəm. O mənim əziz və sədaqətli dostum olub. Birlikdə keçirdiyimiz 20 il mənim həyatımda ən yaxşı illər olub".

## "Qarabağ" səfərdə "Şerif"ə uduzub

Avqustun 23-də Ağdamın "Qarabağ" klubu futbol üzrə UEFA Avropa Liqasının pley-off mərhələsi çərçivəsində ilk matçında səfərdə Moldovanın "Şerif" komandası ilə qarşılaşıb. Qarşılaşma ağdamlıların üstünlüyü ilə keçsə də, meydan sahiblərinin futbolçusu Kapiçin səkkizinci dəqiqədə vurduğu qol oyunda yeganə olub 0:1. Xatırladaq ki, hər iki komanda mübarizəyə Çempionlar Liqasından başlayıb. "Şerif" II təsnifat mərhələsində Makedoniyanın "Şkendiya" klubuna iki oyunun nəticəsinə əsasən məğlub olub (0:0, 0:1). Xatırladaq ki, cavab qarşılaşması avqustun 30-da Bakıda keçiriləcək.

## "Qalatasaray" Qomislə yollarını ayırıb

"Qalatasaray" hücumçusu Bafetimbi Qomislə yollarını ayırıb. Qol.az-ın xəbərinə görə, fransalı forvard Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubuna transfer olunub. Bu barədə hər iki klubun mətbuat xidməti məlumat yayıb. Ərəblər bu transferə görə "Qalatasaray"a 6 milyon avro ödəyəcək. Futbolçu özü isə illik 8 milyon avro maaş alacaq. O, yeni klubu ilə 3 illik müqaviləyə imza atıb. Qeyd edək ki, Qomis ötən mövsümün əvvəlində İngiltərənin "Suonsi" klubundan "Qalatarasay"a transfer olunmuşdu. Fransa millisinin sabiq üzvü ötən mövsüm 33 oyuna 29 qol vuraraq, Superliqanın bombardir olub.

## 23 yaşlı futbolçu "Milan"ın yeni kapitanı oldu

"Milan"ın yeni kapitanı müəyyənləşib. Klubun saytında yer alan xəbərə görə, bundan sonra kapitanlıq sarğısını 23 yaşlı müdafiəçi Alessio Romanoli daşıyacaq. İtaliya millisinin üzvü 2015-ci ildən "Milan"da çıxış edir. Qeyd edək ki, ötən mövsüm "rassonyerlər"in kapitanı Leonardo Bonuççi idi. O, yayda sabiq komandası "Yuventus"a qayıtdığından "Milan"a yeni kapitan seçilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**